# TRAMP ABŞ-YƏ "QIZIL DÖVR"Ü YAŞADACAQMI?



Tramp xarici siyasətdə çox fəaldır. O, ABŞ-nin xarici siyasətinə ciddi düzəlişlər etmək niyyətindədir. Bunun nə dərəcədə real olacağını isə zaman göstərəcək.

**ABŞ prezidenti vəzifəsinin icrasına başlayan Donald Tramp ölkə tarixinə ən qocaman lider kimi düşüb. O, "ABŞ-nin qızıl əsri məhz indi başlayır" deyərək, var-dövlətlərini artıracağını, bayraqlarını Mars da daxil olmaqla, yeni üfüqlərə asacağını bəyan edib.**

**"The Wall Street Journal" yazır ki, Tramp Ukrayna üzrə xüsusi nümayəndəsi Kit Kelloqa münaqişəni 100 gün ərzində başa çatdırmaqla bağlı tapşırıq verib. Qəzetin qiymətləndirmələrinə görə, "Rusiya ilə sazişin bağlanması Trampın təsəvvür etdiyindən daha çətin olacaq".**

SƏHİFƏ 5-də

'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ




25 YANVAR ŞƏNBƏ 2025 № 03 (4204) Qiyməti - 60 qəpik www.kaspi.az



## ƏHALİNİN BANKLARA İNAMI ARTIR

Azərbaycan banklarının faiz və onunla bağlı xərcləri bir milyard manatı keçib. Bəs onlar bu faizləri uzun müddət ödəmək imkanlarına malikdirlərmi? Depozit faizləri ilə bağlı ödənişlər bank sektorunu risk altına salırmı?

SƏHİFƏ 13-də



## İŞLƏYƏN XƏSTƏLƏRİN BÜLLETEN DƏRDİ

Xəstə insanın xəstəxanaya həkim müayinəsinə getməsi yoluxmanın artması deməkdir. Həkim çağırışa gəlmirsə və israrla xəstəni poliklinikaya dəvət edirsə, bu halda bütün məsuliyyət onun üzərinə düşür.

SƏHİFƏ 12-də



## AZƏRBAYCAN AİLƏ MODELİ TƏHLÜKƏDƏ

Respublikada evlənənlərin sayında müşahidə edilən nəzərəçarpan azalma ciddi suallar doğurub. Ekspertlər bu tendensiyanı iqtisadi, sosial, texnoloji və ənənəvi amillərlə izah edirlər.

SƏHİFƏ 14-də

### DAVOSDA AZƏRBAYCAN ADINA FAYDALI MÜZAKİRƏLƏR

# SİYASİ VƏ İQTİSADİ DİALOQ MƏKANI

Davos Forumu dünyanın iqtisadi gündəliyinin formalaşmasında mühüm rol oynayır. Bu platformanın son müzakirələrinin beynəlxalq aləmdə yaşanan kataklizmlərlə eyni vaxta təsadüf etməsi müzakirələrin əhəmiyyətini daha da artırır.




**APARICI BEYNƏLXALQ PLATFORMA**

Davos Forumu bu il də dünyanın yüzlərlə dövlət və hökumət başçılarını, aparıcı transmilli şirkətlərin rəhbərlərini bir araya topladı. Yanvarın 20-də start götürən Forum bir sıra mühüm məsələlərin müzakirə olunduğu aparıcı beynəlxalq platformalardan biri sayılır.

**FORUMUN FƏAL İŞTİRAKÇILARINDAN BİRİ**

Prezident İlham Əliyevin Davos Forumunda iştirakı Azərbaycan üçün mühüm əhəmiyyətə malikdir. Qeyd edək ki, artıq uzun illərdir ölkəmizin Forumda ən ali səviyyədə iştirakı ənənəvi hal alıb. Bu baxımdan, Azərbaycan Davos Forumunun ən fəal iştirakçılarından biri kimi vurğulanır.

SƏHİFƏ 2-də

### "Telefonu "ana qurban" deyərək açır"

# AZƏRBAYCANLI XASİYYƏTİNƏ SAHİB RUMINİYALI KÜRƏKƏN



Sevgi bəzən ən gözlənilməz anlarda, məkanlarda başlayır və möhtəşəm hekayələrə çevrilir. Bəzən isə eşq gözümüzün önündə, ən yaxınımızda olur. Filmlərdə qonşu qızı ilə tanış olmaq və ailə qurmaq səhnələrini yəqin ki, çoxumuz izləmişik. Lakin filmlər də real həyatdan götürülməyibmi? Deməli ki, real həyatda da belə təsadüflər və xoşbəxtliklər olur. Elə bizim hekayənin qəhrəmanları kimi. Budəfəki "Ailə" rubrikamızın qəhrəmanları Rəfiqə və Vlad Mirondur. Onlar da filmlərdə olduğu kimi tanış olublar.

SƏHİFƏ 8-9-da



## AZƏRBAYCANIN TRAMPDAN GÖZLƏNTİLƏRİ

ABŞ-nin yeni prezidentinin enerji gündəmi Azərbaycanın maraqları ilə uyğundur. Bakının Cənub Qaz Dəhlizi kimi transregional enerji təşəbbüslərindəki rolu ABŞ üçün qiymətlidir.

SƏHİFƏ 4-də



## "HƏMİŞƏ KƏNDİMİZİ YUXUMDA GÖRÜRƏM"

Millət vəkili Hikmət Babaoğlu: "Biz Qərbi Azərbaycana qayıdacağıq. Bu, siyasi iddia deyil, hüquqi məsələdir. Qərbi Azərbaycana qayıdış bizim tarixi yaddaşımız və emosional ruhumuz olacaq".

SƏHİFƏ 7-də



## ELEKTRON İDMANIN İNANILMAZ YÜKSƏLİŞİ

Əvvəllər ənənəvi idman növlərinə sponsorluq edən brendlər indi "e-idman"a sərmayə yatırırlar. "E-idman" investisiyanın potensial gəliri, onun gənc və texnologiyadan məlumatlı auditoriyasını nəzərə alsaq, çox böyükdür.

SƏHİFƏ 16-da



"Bütün sahələrdə əməkdaşlıqda maraqlıyıq"

SƏHİFƏ 6-da



İlkin nəticələr gələn həftə açıqlana bilər

SƏHİFƏ 3-də




Ağ Evin ucuz neft hədəfi

SƏHİFƏ 11-də



Deputat içməli su problemindən danışıb

SƏHİFƏ 10-da



Keyfiyyətə yox, kəmiyyətə fokuslanma

SƏHİFƏ 15-də

# SİYASİ VƏ İQTİSADİ DİALOQ MƏKANI

Davos Forumu dünyanın iqtisadi gündəliyinin formalaşmasında mühüm rol oynayır. Bu platformanın son müzakirələrinin beynəlxalq aləmdə yaşanan kataklizmlərlə, Donald Trampın yenidən Ağ Evə qayıtması ilə eyni vaxta təsadüf etməsi müzakirələrin əhəmiyyətini daha da artırır.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az




Ümumdünya İqtisadi Forumu (Davos Forumu) bu il də dünyanın yüzlərlə dövlət və hökumət başçılarını, aparıcı transmilli şirkətlərin rəhbərlərini bir araya topladı. Yanvarın 20-də start götürən Forum bir sıra mühüm məsələlərin müzakirə olunduğu aparıcı beynəlxalq platformalardan biri sayılır.

Beş gün davam edən Forum zamanı iştirakçılar qlobal iqtisadiyyatda yeni artım mənbələri, biznes strategiyalarının əsas geoiqtisadi və texnoloji dəyişiklikləri nəzərə alınmaqla uyğunlaşdırılması, insan kapitalının inkişafına sərmayə qoyuluşu və cəmiyyətin inkişafına töhfə verən iş yerlərinin yaradılması kimi aktual məsəllər ətrafında müzakirələr aparıblar. Forum çərçivəsində yaşıl enerji, yaşıl iqtisadiyyat, ekoloji cəhətdən təmiz texnologiyaların tətbiqi kimi aktuallıq kəsb edən məqamlar da diqqət mərkəzində olub.

### ÖLKƏMİZ ÜÇÜN MÜHÜM PLATFORMA

Prezident İlham Əliyevin Davos Forumunda iştirakı Azərbaycan üçün mühüm əhəmiyyətə malikdir. Qeyd edək ki, artıq uzun illərdir ölkəmizin Forumda ən ali səviyyədə iştirakı ənənəvi hal alıb. Bu baxımdan, Azərbaycan Davos Forumunun ən fəal iştirakçılarından biri kimi vurğulanır. Bu platforma vasitəsi ilə Azərbaycan özünün iqtisadi imkanlarını, investisiya, biznes mühitini, həyata keçirdiyi qlobal miqyaslı layihələri bir daha dünyaya təqdim edir.

## XARİCİ İNVESTİSİYANIN CƏLBİ ÜÇÜN İMKANLAR

Ərazi bütövlüyümüz və suverenliyimiz tam bərpa olunduqdan sonra bu formatlarda ən ali səviyyədə iştirak xüsusilə aktuallıq kəsb edir. Azərbaycan hazırda işğaldan azad edilmiş ərazilərdə böyük infrastruktur layihələri həyata keçirir, ağıllı şəhər, ağıllı kənd, yaşıl iqtisadiyyat konsepsiyası reallaşdırır. Bununla belə, həmin ərazilərə xarici investisiyanın cəlbi, yeni iş yerlərinin yaradılması, sözügedən sahədə qabaqcıl texnoloji təcrübələrdən bəhrələnmək ən ümdə vəzifələrdəndir. Bu baxımdan Davos Forumu Azərbaycana işğaldan azad edilmiş ərazilərin iqtisadi potensialını dünyaya təqdim etmək, qeyd olunan istiqamətlər üzrə aparıcı beynəlxalq şirkətlərlə qarşılıqlı səmərəli əməkdaşlıq qurmaq baxımından da bir fürsət sayılır.

### ENERJİ TƏHLÜKƏSİZLİYİNƏ EDİLƏN VURĞU

Forumu ölkəmiz üçün əhəmiyyətli edən digər mühüm məqam hər il sözügedən platformada enerji təhlükəsizliyi məsələsinə xüsusi diqqətin ayrılmasıdır. Azərbaycan hazırda neft-qaz istehsalçısı olaraq Avropanın, bir sıra digər ölkələrin etibarlı enerji təchizatçısı, həmçinin enerji təhlükəsizliyi strategiyasının əsas mənbəyi rolunda çıxış edir. Bu sahədə qarşıdakı dövrdə alınacaq qərarlar təbii ki, Bakını da yaxından maraqlandırır. Sözügedən sahədə gələcək iqtisadi siyasət məhz bu müzakirələr və alınan qərarlardan doğan nəticələr əsasında müəyyənləşdirilir.

## KEÇİRİLƏN GÖRÜŞLƏR, MÜZAKİRƏ EDİLƏN MƏSƏLƏLƏR

Qeyd etdiyimiz məqamlar Prezident İlham Əliyevin Davos Forumu zamanı keçirdiyi görüşlərin, apardığı müzakirələrin də əsasını təşkil edib. Dövlət başçısı Forum çərçivəsində qarşı tərəfin müraciəti əsasında Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts, İsrail Dövlətinin Prezidenti İsxak Hersoq, ABŞ-nin Xristian Liderlər Konqresinin rəhbəri Conni Mur, Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçs, Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşüb. Bu görüşlərdə həm qarşılıqlı ikitərəfli münasibətlərin gələcək perspektivləri, həm də Azərbaycanın beynəlxalq problemlərin həlli ilə bağlı sərgilədiyi mövqe, siyasəti diqqət mərkəzində olub.



Dövlət başçısı Davos Forumu çərçivəsində tək siyasi liderlərlə yox, eləcə də dünyanın aparıcı şirkətlərinin rəhbərləri ilə də görüşüb. Bu görüşlər də məhz qarşı tərəfin müraciətləri əsasında reallaşıb. Burada "Carlsberg Group" şirkətinin Müşahidə Şurasının sədri Henrik Poulsen və Baş icraçı direktoru Yakob Aarup-Andersen, "DP World" şirkətlər qrupunun sədri və icraçı direktoru Sultan Əhməd bin Sulaim, "The Goldman Sachs Group Inc." şirkətinin qlobal məsələlər üzrə prezidenti Cared Kohen, "OliverWyman Group" şirkətinin Baş icraçı direktoru Nik Studerlə görüşləri qeyd edə bilərik. Aparılan müzakirələr zamanı Azərbaycan iqtisadiyyatının müxtəlif istiqamətləri üzrə əməkdaşlıq perspektivləri diqqət mərkəzində olub. Ölkəmizdə yaradılan əlverişli investisiya və biznes mühiti qeyd edilib. Dövlət başçısının Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) prezidenti Odile Reno-Basso ilə görüşündə isə Avropaya yaşıl enerjinin ixracı, bununla bağlı həm Gürcüstanla, həm də Mərkəzi Asiya ölkələri ilə regional əməkdaşlıq layihələri və imkanları barədə müzakirələr aparılıb. Azərbaycan Respublikası ilə Avropa Yenidənqurma və İnkişaf Bankı arasında "Gəncə şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması üçün kredit sazişi" də imzalanıb. Göründüyü kimi, Davos Forumu dünyanın həm siyasi, həm də iqtisadi gündəliyinin formalaşmasında mühüm rol oynayır. Bu platformanın son müzakirələrinin beynəlxalq aləmdə yaşanan kataklizmlərlə, Donald Trampın yenidən Ağ Evə qayıtması ilə eyni vaxta təsadüf etməsi bu müzakirələrin əhəmiyyətini daha da artırır.

# İLKİN NƏTİCƏLƏR GƏLƏN HƏFTƏ AÇIQLANA BİLƏR

Kanat Bozumbayev: "İnternetdə kiminsə nəsə dərc etməsi bunun həqiqət olduğu anlamına gəlmir. Dərc olunan materialda böyük fərqlər var. Buna görə də rəsmi mənbələrin məlumatlarını gözləyin".



## RUSİYA, AZƏRBAYCAN VƏ QAZAXISTANDAN OLAN EKSPERTLƏR BİRLİKDƏ ÇALIŞIRLAR

FUAD ABASOĞLU

Qazaxıstanın Baş nazirinin müavini Kanat Bozumbayev dekabrın 25-də Aktau yaxınlığında qəzaya uğrayan AZAL-a məxsus təyyarənin "qara qutusu"nun oxunmuş məlumatlarının internetə sızmasını şərh edib.

### "BU, DAHA ÇOX YERÜSTÜ DANIŞIQLAR İDİ"

Baş nazirin müavini mətbuat konfransında bildirib ki, "qara qutu"ların oxunmasında Qazaxıstan, Rusiya, Azərbaycan və Braziliyadan olan ekspertlər iştirak ediblər. "Hamı bərabər çıxışa malik olub. İnternetə sızdırılmış danışıqları dinlədim - mənə elə gəlir ki, bu, daha çox yerüstü danışıqlar, yerlə danışıqlar idi. Mən orada ekipaj üzvlərinin danışıqlarını eşitmədim. "Qara qutu"da kapitan, pilot və ekipaj üzvlərinin apardığı bütün danışıqlar var. Buna əsasən başa düşdüm ki, bu, bizim istintaq qrupundan sızma deyil", - Baş nazirin müavini bildirib.

### "QARA QUTU"LARDAKI STENOQRAMLARIN MƏZMUNUNDAN FƏRQLƏNİR

Qazaxıstan rəsmisinin sözlərinə görə, internetdə dərc olunan stenoqramlar "qara qutu"ların məzmunundan fərqlənir.

"İnternetdə kiminsə nəsə dərc etməsi bunun həqiqət olduğu anlamına gəlmir. Dərc olunan materialda böyük fərqlər var. Buna görə də rəsmi mənbələrin məlumatlarını gözləyin", - K.Bozumbayev vurğulayıb.

Baş nazirin müavininin sözlərinə görə, təyyarənin "qara qutu"ları hazırda istintaq qrupundadır.

"Təyyarənin qalıqları Aktaudakı anqardadır, müvafiq beynəlxalq ekspertlər tərəfindən yoxlanılıb və onlar öz rəylərini verəcəklər. Oxunmuş materiallar məhz aviasiya hadisəsini araşdıran başqa bir qrupdadır: nə baş verib, nə vaxt baş verib, ekipaj özünü necə aparıb, peşəkar və ya qeyri-peşəkar, yerdən hansı əmrlər verilib. Düşünürəm ki, sonradan bu materialların açıqlanması bir çox uydurmaya son qoyacaq", - K.Bozumbayev bildirib.



Kanat Bozumbayev

K.Bozumbayev bildirib ki, təhqiqatın ilkin nəticələri gələn həftə açıqlana bilər. "ICAO standartlarına (Beynəlxalq Mülki Aviasiya Təşkilatı) əsasən aviasiya orqanları - təxminən 17-18 nəfər - Rusiya, Azərbaycan və Qazaxıstandan olan ekspertlər bir ay ərzində aviasiya hadisəsinin araşdırılmasını həyata keçirir. Komissiya işləyir. Uçuş parametrləri, rejimi və səs yazıları əsasında müəyyən nəticələr çıxarılacaq. Düşünürəm ki, gələn həftə ilkin hissə Nəqliyyat Nazirliyi tərəfindən dərc ediləcək. Çünki ICAO ilkin nəticələrin hadisə baş verdikdən sonra 30 gün ərzində açıqlanmasını tövsiyə edir. Çətinliklər var, amma biz işi vaxtında yekunlaşdırmalıyıq", - K.Bozumbayev bildirib. O, təyyarə qəzasından sonra cinayət işinin başlandığını da sözlərinə əlavə edib. "Bundan başqa, cinayət işi açılıb - ballistik və partlayış-texniki ekspertiza var. Bizim güc strukturlarımız sıx təmasda işləyir", - Baş nazirin müavini vurğulayıb.

### CALİBER.AZ: "ƏMRİ VERƏN ŞƏXSLƏRİN ADLARI VƏ RÜTBƏLƏRİ MƏLUMDUR"

Bu arada Caliber.az araşdırmalarla bağlı maraqlı məlumatlar əldə edib. Məlumatda bildirilir ki, qəza ilə bağlı Rusiyada aparılan cinayət işi üzrə istintaq təsdiq edib ki, hava gəmisi "Pantsir S-1" HHM sistemi tərəfindən vurulub. Bildirilir ki, qurğu Suriyadan Rusiyaya gətirilib. "Həmçinin bizə məlum olub ki, Rusiyada istintaq Azərbaycan təyyarəsinə qarşı radioelektron mübarizə vasitələrinin tətbiq edildiyini təsdiqləyib. Bu, hava gəmisinin idarəetmə sisteminin sıradan çıxmasına səbəb olub. Rusiyadakı istintaq mülki təyyarəyə atəş açan və həmçinin bu əmri verən şəxsi müəyyən edib. Bundan əlavə, redaksiyamıza artıq bu şəxslərin adları və rütbələri məlumdur və biz bu məlumatı lazımi vaxtda oxucularla mütləq bölüşəcəyik", - deyə nəşrdə vurğulanıb.

### BİR NƏFƏRİN VƏZİYYƏTİ AĞIR OLARAQ QALIR

Yeri gəlmişkən, Səhiyyə Nazirliyi və TƏBİB qəza zamanı xəsarət alanların son durumu ilə bağlı birgə məlumat yayıb. "AZAL-ın Bakı-Qroznı reysini yerinə yetirən təyyarənin ötən ilin dekabr ayının 25-də Aktau şəhəri yaxınlığında qəzaya uğraması nəticəsində xəsarət alan 4 nəfərin (1 kişi və 3 qadın olmaqla) stasionar müalicəsi davam etdirilir, reanimasiya şöbəsinə yerləşdirilən 1 nəfərin vəziyyəti ağır stabildir", - deyə məlumatda bildirilib.

Qeyd olunub ki, stasionar şöbədə müalicəsi davam etdirilən digər 3 nəfərin vəziyyəti isə qənaətbəxş olaraq dəyərləndirilir.

Məlumatda xatırladılır ki, Yeni Klinikaya hospitalizasiya olunan 17 nəfərdən 4-ü birbaşa tibb müəssisəsinin reanimasiya şöbəsinə, 13 nəfər isə stasionar şöbəyə qəbul edilib.

Təxliyə olunan pasiyentlərə, əsasən, müxtəlif bədən nahiyələrinin travmaları (sınıq, əzilmə, kəllə-beyin travması, döş qəfəsinin küt travması) ikitərəfli pnevmo-hemotoraks, tənəffüs çatışmazlığı diaqnozları təyin edilib.

### 17 YARALIDAN 13 NƏFƏRİ EVƏ YAZILIB

Ümumilikdə təxliyə edilən 17 yaralıdan 13 nəfəri artıq ambulator müalicə üçün evə yazılıb. Onların müalicələri yaşadıqları ərazi üzrə müvafiq sahə həkimləri tərəfindən nəzarətdə saxlanılır.

Qəza nəticəsində xəsarət alanlardan 3 nəfərin üzərində cərrahi əməliyyat icra olunub.

Xatırladaq ki, AZAL-a məxsus təyyarə dekabrın 25-də Aktau şəhəri yaxınlığında qəzaya uğrayıb. Təyyarənin göyərtəsindəki 67 nəfərdən 38-i həlak olub, 29-u sağ qalıb.

Hadisədən sonra Prezident İlham Əliyevin tapşırığı ilə təyyarə qəzasının səbəblərinin araşdırılması üçün Baş nazir Əli Əsədovun rəhbərliyi ilə Dövlət Komissiyası yaradılıb.

Dövlət başçısı eyni zamanda qəzada həlak olan ekipaj üzvlərini - İqor İvanoviç Kşnyakin, Aleksandr Georgiyeviç Kalyaninov, Hökumə Cəlil qızı Əliyevanı Azərbaycanın Milli Qəhrəmanı adı, xəsarət alan ekipaj üzvləri - Zülfiqar Sərdar oğlu Əsədov və Aydan Vaqif qızı Rəhimlini isə 1-ci dərəcəli "Rəşadət" ordeni ilə təltif edib.

Prezident İlham Əliyev yanvarın 6-da təyyarə qəzasında həlak olan ekipaj heyətinin ailə üzvləri və qəza zamanı sağ qalan təyyarə bələdçiləri ilə görüşündə bəyan edib ki, Azərbaycan vətəndaşlarının bu qəzada həlak olmasının günahı Rusiya Federasiyası nümayəndələrininüzərindədir.

# AZƏRBAYCANIN TRAMPDAN GÖZLƏNTİLƏRİ

ABŞ-nin yeni prezidentinin enerji gündəmi Azərbaycanın maraqları ilə uyğundur. Bakının Cənub Qaz Dəhlizi kimi transregional enerji təşəbbüslərindəki rolu ABŞ üçün qiymətlidir.



AQŞİN KƏRİMOV



## CO BAYDENDƏN FƏRQLİ OLARAQ...

Donald Trampın ABŞ-nin 47-ci prezidenti kimi andiçmə mərasimdəki nitqi əsasən daxili problemlərə yönəlsə də, orada qlobal təhlükəsizlik və beynəlxalq münasibətlərin gələcəyinə də vurğular var idi. ABŞ-nin yeni dövrdəki strategiyası təbii ki, Azərbaycanın da diqqət mərkəzindədir. Bakı Vaşinqtonla Tramp administrasiyası dövründə səmərəli, qarşılıqlı hörmət və maraqların təmininə əsaslanan əlaqələr qurmaqda maraqlıdır. Azərbaycan Prezidenti İlham Əliyevin Donald Trampa ünvanladığı təbrik məktubunun xarakteri və məzmunu da Bakının Ağ Evdən konstruktiv istiqamətlərdəki gözləntilərini ifadə edir.

### TRAMPIN BƏZİ SƏRƏNCAMLARINA ÜMUMİ BAXIŞ

Trampın Oval Ofisdəki kürsüsünə əyləşər-əyləşməz imzaladığı sərəncamlar ABŞ-nin daxili prioritetlərdə müdafiə və təhlükəsizlik siyasətinin güc vasitəsilə həyata keçiriləcəyini vurğulayır. Xüsusilə Meksika kartellərinin xarici terror təşkilatı kimi tanınması, ABŞ-nin cənub sərhədləri boyunca fövqəladə vəziyyət elan edilməsi, sərhədə qoşunların yerləşdirilməsi qərarı sərhəd təhlükəsizliyi planlarında uğurlu nəticə əldə etməyinə hesablanıb. İlk baxışda Trampın sərəncamlarındakı “daxili kataloq” ABŞ-nin öz prioritetlərinə cavab vermək üçün qlobal fəaliyyətini məhdudlaşdıracağı təəssüratları yarada bilərdi. Lakin yeni prezidentin xarici siyasət doktrinasına da xüsusi diqqət yetirəcəyinə dair proqnozlar var. Trampın nitqində ABŞ-nin müttəfiqləri və ya ittifaqlar haqqında heç bir söz yox idi. Amma andiçmədən sonra Trampın ABŞ-ni Ümumdünya Səhiyyə Təşkilatından, Paris İqlim Sazişindən çıxarmaq barədəki qərarları, Rusiyaya Ukraynadakı müharibəni dayandırmaq barədəki ultimatumu Vaşinqtonun beynəlxalq rəqabət arenasında fərqli siyasət izləyəcəyini söyləməyə əsas verir. Trampın elan etdiyi prioritetlər aşağıdakı kimi təsnifləndirilə bilər:

- ABŞ-nin qlobal fəaliyyəti yenidən nəzərdən keçiriləcək,
- Bununla paralel olaraq, ABŞ-nin beynəlxalq təhlükəsizlik və sabitliyin təminatçısı kimi rol almaq üçün imtiyazları genişləndiriləcək.

Donald Trampın ölkəsini strateji güc vitrinində ən önə çıxarmaq planı ABŞ-nin xaricdəki maraqlarının təmini üçün lazım olan maliyyələri məhdudlaşdırmaqla müşayiət oluna bilər. Yəni, demokratlardan, o cümlədən sələfi Co Baydendən fərqli olaraq, cənab Tramp beynəlxalq və regional konyunkturadakı “demokratik” hərəkatlara, “demokrat” dövlət və hökumət başçılarına Ağ Evin təyin etdiyi büdcəni ya dondura, ya da onu əhəmiyyətli şəkildə azalda bilər. Bu, ABŞ-nin beynəlxalq müdafiə siyasətindəki öhdəliklərini azaldacaq bir akt deyil. Sadəcə, Vaşinqtonda düşünürlər ki, izafi xərclərə getmədən də supergüc iddialarının yerinə yetirilməsi mümkündür. ABŞ belə olan halda az məsuliyyətlə daha böyük işlər görməyi qarşıya məqsəd qoya bilər ki, onun bu siyasətinin Cənubi Qafqazdan da yan keçməyəcəyi şübhəsizdir.

### ENERJİ GÜNDƏMİ AZƏRBAYCANIN MARAQLARINA UYĞUNDUR

Trampın Panama kanalını geri alacağına dair vədi, strateji dəyərinə görə Qrenlandiyaya olan marağı Azərbaycana prioritetlərindəki vurğuları ABŞ-yə rahat izah etmək imkanları qazandırır. Bu mənada, Azərbaycan lideri İlham Əliyevin Donald Trampa məktubu Cənubi Qafqazın sülh və təhlükəsizlik naminə fərqli şəkildə yenidən qurulmasında ABŞ-nin faydalı iştirak perspektivinin qiymətləndirilməsidir.

Tramp administrasiyası artıq milli enerji fövqəladə vəziyyəti elan edərək, daxili və xarici siyasətinin əsası kimi “enerji üstünlüyünü” vurğulayıb. Bu, o iddiaya əsaslanır ki, enerji təhlükəsizliyi qlobal rəqabətin getdikcə daha vacib bir elementinə çevrilir. Trampın enerji gündəmi Azərbaycanın maraqları ilə uyğundur. Çünki Azərbaycanın Cənub Qaz Dəhlizi kimi transregional enerji təşəbbüslərindəki rolu ABŞ üçün hədsiz qiymətlidir. Bunları nəzərə alaraq, Azərbaycan Cənubi Qafqazda 2025-ci ildə geosiyasi təsir imkanlarını genişləndirəcək addımlara ABŞ-nin maraqlarının inteqrasiyasını hədəfləmiş kimi görünür. Azərbaycan onun da analizini aparır ki, Cənubi Qafqaz regionunda ABŞ-nin yeri Vaşinqtonun Rusiya, Çin və İranla əlaqələrinin necə olacağından asılı ola bilər. Böyük ehtimalla İlham Əliyevin ABŞ rəsmiləri ilə gələcək təmasları zamanı bu amil nəzərə alınacaq. Cənubi Qafqaz səhnəsindəki enerji siyasəti ilə yanaşı, Zəngəzur dəhlizi layihəsi Azərbaycan-ABŞ münasibətlərini yeniləyən təsirli amil ola bilər. Bu mənada ABŞ-nin gündəliyində Bayden administrasiyası dövründəkinin əksinə olaraq, Ermənistanın yeri ən aşağı səflərə doğru düşə bilər. Üstəlik, Azərbaycan Trampın yanaşmalarından onu da proqnozlaşdırır ki, Ağ Ev növbəti dörd ildə Cənubi Qafqazda Rusiya ilə məsafəli davranacaq. Bütün bunlar rəsmi Bakı üçün əlavə imkanlar yarada bilər.



# TRAMP ABŞ-YƏ “QIZIL DÖVR”Ü YAŞADACAQMI?



**Andiçmə mərasimindəki və sonrakı bəyanatlarından da göründüyü kimi, Tramp xarici siyasətdə çox enerjili və fəaldır. O, ABŞ-nin xarici siyasətinə ciddi düzəlişlər etmək niyyətindədir. Bunun nə dərəcədə real olacağını isə zaman göstərəcək.**



AZƏR NURİYEV

Növbəti dəfə ABŞ Prezidenti vəzifəsinin icrasına başlayan Donald Tramp ölkə tarixinə ən qocaman lider kimi düşüb. O, “ABŞ-nin qızıl əsri məhz indi başlayır” deyərək, Birləşmiş Ştatların var-dövlətini artıracağını, ərazisini genişləndirəcəyini, bayrağını Mars da daxil olmaqla, yeni üfüqlərə asacağını bəyan edib. Ölkəyə gəlirlərin xaricdən gələcəyini və bunun üçün Xarici Gəlir Xidmətinin yaradıldığını bildirib. Tramp ölkənin yenidən varlanacağını, inflyasiyanı azaltmaq üçün administrasiyasının dərhal işə başlayacağını dilə gətirib. ABŞ yenidən istehsal edən bir ölkə olacaq deyən Tramp, ölkədə neft və qaz üzrə qazma işlərinin sürətlənəcəyini bildirib. Onun sözlərinə görə, ABŞ hökumətində yalnız kişi və qadın olmaqla, iki cinsin siyasəti olacaq, “dəri rənginə baxmadan ləyaqət qiymətləndiriləcək”.

İsrail-HƏMAS atəşkəsinə toxunan ABŞ Prezidenti bildirib ki, onun administrasiyası Yaxın Şərqdə sülhyaradıcı və birləşdirici olacaq. Tramp andiçmə mərasimində xüsusi olaraq Rusiya-Ukrayna müharibəsi barədə danışmasa da, dünyadakı müharibələri bitirəcəyini vəd edib. Rusiya Prezidenti Vladimir Putin də andiçmə mərasimindən əvvəl Trampı prezident seçilməsi münasibətilə təbrik edib. Bu o deməkdir ki, Putin Trampla görüşməyə hazırdır. Putin sanksiyalardan qurtulmaq və Trampla Avropa dövlətləri arasında ixtilafı dərinləşdirmək üçün Ağ Evin yeni sahibinin atəşkəs tələbini qəbul edə bilər.

Beləliklə, qarşıdakı dörd il dünya tarixinə sürprizlərlə dolu dövr kimi düşə bilər. Hər şey isə iki fövqəldövlətin prezidentlərinin görüşündən və qəbul ediləcək qərarlardan asılı olacaq. Donald Trampla Vladimir Putin arasında görüşün bu ilin martında keçiriləcəyi ehtimal edilir.

Bəs görəsən, Tramp Ukrayna və Fələstin münaqişələri ilə bağlı real nəticələrə nail ola biləcəkmi?

### SÜLH OLMASA, SANKSİYALAR OLACAQ

Jurnalistlər Trampdan Putin danışıqlar masasına oturmasa, Vaşinqtonun Rusiyaya yeni sanksiyalar tətbiq edib-etməyəcəyini soruşublar. ABŞ Prezidenti bu suala “elə görünür” cavabını verib. Tramp komandasının Ukraynaya əlavə silah göndərilməsi imkanlarını da nəzərdən keçirdiyini bildirib. Halbuki seçki kampaniyası zamanı o, Bayden administrasiyasının Ukraynaya verdiyi yardımların çox olması ilə bağlı sərt çıxışlar edib. Xatırladaq ki, seçki kampaniyası zamanı Tramp vəzifəyə başladıqdan sonra 24 saat ərzində Ukraynada müharibəni bitirəcəyinə söz vermişdi. Son həftələrdə o, bu bəyanatından geri çəkilib. Bir çox analitiklər düşünürlər ki, müharibənin yaxın zamanda bitməsi çətindir. Çünki rəsmi Kiyev NATO və Avropa İttifaqına inteqrasiyada israrlıdır. Rusiya isə buna qarşıdır. Belə bir şəraitdə ortaq məxrəcə gəlmək, hansısa razılaşmaya getmək çətindir.



Tramp daha əvvəl bildirib ki, Putin Ukrayna müharibəsini bitirmək üçün razılaşmaya getməkdən imtina etməklə Rusiyanı “məhv edir”. Fərziyyələr var ki, Tramp Putinin Ukrayna ilə bağlı mövqeyini dəyişdirmək üçün Kremlin Arktika, Yaxın Şərq və Afrika kimi regionlardakı maraqlarına qarşı addımlar ata bilər. Eyni zamanda, Kremlin müttəfiqləri - İran və Şimali Koreyaya təzyiq göstərilməsi də mümkündür. Trampın bu açıqlamalarından öncə Fransa Prezidenti Emmanuel Makron sülh danışıqlarından əvvəl Kiyevin mövqelərinin gücləndirilməsinin vacibliyi ilə bağlı çıxış edib. Müharibənin uzun müddət davam etmə ehtimalına toxunan Makron “özümüzü aldatmayaq, bu münaqişə bir neçə günə həll olunmayacaq” deyə Fransa hərbçilərinin qarşısındakı çıxışında bildirib.

## 24 SAAT 100 GÜNLƏ ƏVƏZLƏNİB

“The Wall Street Journal” (WSJ) isə yazır ki, Tramp Ukrayna üzrə xüsusi nümayəndəsi Kit Kelloqa münaqişəni 100 gün ərzində başa çatdırmaqla bağlı tapşırıq verib. Qəzetin qiymətləndirmələrinə görə, “Rusiya ilə sazişin bağlanması Trampın təsəvvür etdiyindən daha çətin olacaq”. Mənbələr Trampın Ukrayna üzrə danışıqlar prosesinin gedişinə şəxsən nəzarət etmək niyyətində olduğunu bildiriblər. Kelloqun keçmiş həmkarları onun müstəqil fiqur olmadığını və tamamilə prezidentdən asılı olduğunu iddia edirlər.

## ABŞ HÖKUMƏTİNİN QƏZZA SİYASƏTİ NECƏ OLACAQ?



İsrail-Fələstin münaqişəsi də Trampın əsas gündəm mövzularındandır. Məlum olduğu kimi, Tramp hələ vəzifəsinin icrasına başlamadan Qəzzada atəşkəsin əldə edilməsində rol oynayıb. Tərəflər ABŞ-nin vasitəçiliyi ilə üçmərhələli atəşkəs razılaşması əldə ediblər. Trampın Yaxın Şərq üzrə xüsusi nümayəndəsi Stiv Vitkoff 11 yanvar tarixində İsrail Baş naziri Benyamin Netanyahu ilə görüşüb. Rəsmilərin sözlərinə görə, gərgin keçən görüş zamanı Vitkoff atəşkəslə bağlı israr edib. Daha sonra Dohaya gedən Vitkoff atəşkəs görüşmələrinə də qatılıb. HƏMAS-ın nümayəndəsi bildirib ki, Trampın yeni administrasiyasının təzyiqi olmasaydı, razılaşmanın mümkün ola biləcəyini təsəvvürünə belə gətirə bilməzdi.

Bəs atəşkəs razılaşmasının davamında ABŞ hökumətinin Qəzza siyasəti necə olacaq? Trampın Qəzza ilə bağlı hansı siyasəti yürüdəcəyi maraq doğuran suallar sırasındadır. Yeni prezidentin komandasından olan rəsmilərdən biri ABŞ-nin qaçqın fələstinliləri köçə məcbur edəcəyini iddia edib. O, Stiv Vitkoffun atəşkəs zamanı Qəzzaya səfər edəcəyini də qeyd edib.

Ümumilikdə, andiçmə mərasimndəki və sonrakı bəyanatlardan da göründüyü kimi, Tramp xarici siyasətdə çox enerjili və fəaldır. O, ABŞ-nin xarici siyasətinə ciddi düzəlişlər etmək niyyətindədir. Bunun nə dərəcədə real olacağını isə zaman göstərəcək.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17
E-mail: kaspiqazeti@kaspi.az

# “BÜTÜN SAHƏLƏRDƏ ƏMƏKDAŞLIQDA MARAQLIYIQ”

**Misir Ərəb Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Hişam Mohamed Nağı Abdel Həmid: “Bizi qane etməyən iki ölkə arasında ticarət mübadiləsinin aşağı səviyyədə olmasıdır. Mövcud rəqəmlər iki ölkənin potensialını özündə əks etdirmir”.**



SÖHBƏTLƏŞDİ

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

“Ölkələrimiz arasında əməkdaşlıq güclənib. Prezidentlərin qarşılıqlı səfərlərindən sonra iki ölkə arasında münasibətlərin daha da sıxlaşmasına töhfə verən cəhətlərdən biri investisiya marağı, digəri adət-ənənələrin oxşarlığıdır”. Misir Ərəb Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Hişam Mohamed Nağı Abdel Həmid “Kaspi” qəzetinə müsahibəsi zamanı Azərbaycanla Misir arasında qarşılıqlı əlaqələrdən və gələcək üçün planlaşdırılan və arzulanan əməkdaşlıqdan danışdı.

## ƏLAQƏLƏRİN GÜCLƏNDİRİLMƏSİNƏ DƏSTƏK

● **Cənab səfir, Azərbaycanın çoxşaxəli xarici siyasətində əsas istiqamətlərdən biri də ərəb dövlətləri ilə əlaqələrdir. Prezident İlham Əliyevin iyunda Misirə baş tutan rəsmi səfəri ölkələrimiz arasında əməkdaşlığın dərinləşməsinə hansı töhfələri verir?**

● Öncə Azərbaycanın COP29-a ev sahibliyi etməsi münasibətilə təbrik edirəm. Son illərdə ölkələrimiz arasında əməkdaşlıq çox güclənib. Bu, Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisinin 2023-ci ilin yanvarında Azərbaycana səfəri, 2024-cü ilin iyun ayında isə Azərbaycan Prezidenti İlham Əliyevin Misirə səfərinin nəticəsi kimi qəbul edilə bilər. Prezidentlərin qarşılıqlı səfərlərindən sonra iki ölkə arasında münasibətlərin daha da sıxlaşmasına töhfə verən cəhətlərdən biri investisiya marağı, digəri adət-ənənələrin oxşarlığıdır. Yüksək səviyyəli digər səfərlərə misal olaraq, Böyük İmam Əl-Əzhərin şeyxinin Azərbaycana ilk səfərini qeyd etmək olar. Misir Respublikasının baş nazirinin rəhbərlik etdiyi nümayəndə heyəti COP29-da iştirak etdi. Dekabrın 19-da Qahirə şəhərində Azərbaycanın D8 təşkilatının üzvü seçilməsi münasibətilə də Azərbaycanı təbrik edirəm. Əlaqələrin güclənməsi iki ölkənin mənafeyinə xidmət edir. Ölkələrimiz arasında hökumətlərarası müştərək komissiya fəaliyyət göstərir. Komissiyanın iclası iki ildən bir keçirilir. Siyasət, mədəniyyət, incəsənət, investisiya, elm və təhsil və s. sahələri əhatə olunur. Bütün bunlar iki ölkə arasında əməkdaşlığın genişləndirilməsi üçün geniş bir müstəvi açır.

Onu da qeyd edim ki, Misirin İsgəndəriyyə kitabxanası dünyanın ən böyük kitabxanalarındandır. Bu kitabxanada Azərbaycan şairi Nizami Gəncəvinin guşəsi var. O cümlədən, Azərbaycanla Misirin bəzi şəhərləri arasında qardaşlıq sazişləri var. Bakı Qahirə ilə, Sumqayıt İsgəndəriyyə ilə, Abşeron əl Qəlyubiyyə ilə, Qəbələ Cənubi Sinay əyaləti ilə qardaşlaşıb.



## “ƏMƏKDAŞLIQ ÜÇÜN TƏKLİFLƏRƏ AÇIĞIQ”

● **Sizcə, daha hansı sahələrdə əlaqələrin genişləndirilməsinə ehtiyac var?**

● Bizi qane etməyən iki ölkə arasında ticarət mübadiləsinin aşağı səviyyədə olmasıdır. Mövcud rəqəmlər iki ölkənin potensialını özündə əks etdirmir. Hazırda bizim əməkdaşlıq edə biləcəyimiz sahələrdən biri əczaçılıqdır. Bu sahədə əməkdaşlıq etmək üçün Azərbaycanın aidiyyəti qurumları ilə əlaqə yaradırıq. Tikinti, infrastruktur, təhsil, turizm sahələrində də əməkdaşlıq edə bilərik. Azərbaycanda qədim abidələrin restavrasiyası ilə bağlı təkliflərimizi də təqdim etmişik və cavab gözləyirik. Biz Azərbaycanı Süveyş Kanalı İqtisadi Zonasına investisiya yatırmağa dəvət edirik. Həmin iqtisadi zonada müxtəlif dövlətlərin - Çinin, Rusiyanın, Hindistanın investisiyaları var. Misir Azərbaycana Afrika ölkələri ilə əməkdaşlığın qurulmasında da yardımçı ola bilər. Bir sözlə, biz bütün sahələrdə əməkdaşlığa maraqlıyıq.

> *“Tikinti, infrastruktur, təhsil, turizm sahələrində də əməkdaşlıq edə bilərik. Azərbaycanda qədim abidələrin restavrasiyası ilə bağlı təkliflərimizi də təqdim etmişik və cavab gözləyirik.”*

## TƏHSİL SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ

● **Hazırda Misir azərbaycanlıların ali təhsil almaq üçün seçdiyi ölkələr arasındadır. Qarşılıqlı tələbə mübadiləsi və tələbələr üçün təqaüd imkanları necədir?**

● İki ölkə arasında təhsil sahəsində saziş və icra proqramı var. ADA Universiteti ilə Misirin Diplomatiya İnstitutu arasında anlaşma memorandumu imzalanıb. Azərbaycan artıq misirlilər üçün tibb, dənizçilik, stomatologiya sahəsində əsas təhsil istiqamətlərindən birinə çevrilir. Hazırda misirli tələbələr bu sahələr üzrə Azərbaycanda təhsil alırlar. Misir Səfirliyinin Mədəniyyət və Təhsil əlaqələri Mərkəzinin rəhbəri vəzifəsini icra edən şəxs Azərbaycan Neft və Sənaye Universitetinin məzunudur. Eləcə də Azərbaycandan Misirin müxtəlif universitetlərində təhsil alanlar var. Biz Misirin özəl universitetləri ilə də əməkdaşlığın yaranması üçün yollar axtarırıq. Ölkələr arasında ali təhsil sahəsində qarşılıqlı təqaüd proqramları da mövcuddur.

● **Misirin ölkəmizdəki Mədəniyyət Mərkəzi əvvəllər ərəb dili kursları elan edirdi. Bu gün də kurslar davam edirmi?**

● Mərkəzin fəaliyyəti yenidən bərpa edilib. Bu kursların həyata keçirilməsi məsələsinə baxılır. Mərkəzdə təkcə ərəb dili kursları deyil, rəssamlıq və s. kurslar da fəaliyyət göstərəcək.



Fotolar: Rüfət Mikaylov/Global Photostock

## “AZƏRBAYCAN MÜHÜM TURİZM İSTİQAMƏTLƏRİNDƏN BİRİNƏ ÇEVRİLİR”

● **Şübhəsiz ki, ikitərəfli əlaqələrin inkişafında aviasiya əlaqələri də böyük rol oynayır.**

● Bakı ilə Şarm Əl Şeyx arasında birbaşa təyyarə reysləri var və həftədə bir dəfə həyata keçirilir. Hazırda iki ölkənin paytaxtları arasında hava reyslərinin açılması üçün də danışıqlar aparırıq. Uzun müddətdir ki, ölkələrimizin aviasiya qurumları arasında bu mövzuda müzakirələr davam etdirilir. Düşünürəm ki, artıq bu müzakirələri tamamlamaq vaxtıdır.

● **Qarşılıqlı turizm əlaqələrinə toxunaq. Azərbaycanlılar səyahət üçün Misiri çox seçirlər. Misirdə Azərbaycana maraq necədir?**

● Hazırda azərbaycanlılar təkcə Şarm Əl Şeyxlə kifayətlənmirlər, Misirin digər şəhərlərinə də gedirlər. Əvvəllər Azərbaycan misirlilər tərəfindən o qədər tanınmırdı. Bu gün isə Azərbaycana səfər edən misirli turistlərin sayında artım var. Azərbaycan artıq misirlilər üçün də mühüm turizm istiqamətlərindən birinə çevrilir. Bunu nəzərə alaraq Bakı ilə Qahirə arasında birbaşa reyslərin açılması istiqamətində səylərimizi davam etdiririk.

● **Cənab səfir, hazırda dünyamız çox narahatdır. Yeni ilə qədəm qoymuşuq. Dünyamıza arzunuz nədir?**

● Sülh bir nemətdir. Arzum budur ki, dünyamızda sülh bərqərar olsun. Dünyadakı faciələr, müharibələr insanlığı qorumaqla öz həllini tapsın. Bu istiqamətdə böyük dövlətlərin üzərinə böyük missiyalar düşür. Fürsətdən istifadə edərək, Misir Səfirliyinin rahat fəaliyyətinə şərait yaratdığına görə Azərbaycan rəhbərliyinə təşəkkürümü bildirirəm! Azərbaycanın haqqıdır ki, gündən-günə inkişaf etsin və çiçəklənsin.

● **Müsahibə üçün təşəkkür edirik!**

QƏRBİ AZƏRBAYCANA QAYIDIŞ SİYASİ İDDİA DEYİL, HÜQUQİ MƏSƏLƏDİR

# “HƏMİŞƏ KƏNDİMİZİ YUXUMDA GÖRÜRƏM”

**Hikmət Babaoğlu:** “Biz Qərbi Azərbaycana qayıdacağıq. Bu, siyasi iddia deyil, hüquqi məsələdir. Qərbi Azərbaycana qayıdış bizim tarixi yaddaşımız və emosional ruhumuz olacaq”.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az





“Elmin yolunu sizə göstərən məktəb və müəllimlərdir. İnsan elə bir bioloji varlıqdır ki, onun sosial varlığa çevrilməsi öyrənmədən keçir. Bu, qətiyyət, iradə, əzm, prinsipiallıq və çalışqanlıq tələb edir. İnkişaf etmiş cəmiyyətdən danışırıqsa, burada açar söz var: öyrənmə”. Millət vəkili, professor Hikmət Babaoğlunun Binə qəsəbəsindəki 88 saylı məktəbdə şagirdlərlə görüşündə səsləndirdiyi fikirlər məktəblilər üçün əsl dərs oldu.

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin “Kaspi” qəzeti ilə birgə reallaşdırdığı “Məktəbdə”nin növbəti qonağı şagirdlərə öz həyat hekayəsini danışdı, təhsilləri, həyatda yer tapmaları və şəxsiyyət kimi formalaşmaları istiqamətində tövsiyələrini verdi.

### “ATAM MÜƏLLİM, ANAM KİTABXANA MÜDİRİ İDİ”

Qonaq görüşə uşaqlıq illərini, doğulduğu kəndi xatırlamaqla başladı: “Mən Qərbi Azərbaycanın Amasiya rayonunun Göllü kəndində anadan olmuşam. Balaca bir kənd idi, amma Azərbaycan ailəsinin təhsilə olan münasibəti orada da vardı. Atam müəllim, anam kitabxana müdiri idi. Evdə də, məktəbdə də məndən oxumaq tələb olunurdu. Oxumağı vərdişə çevirmişdim. Yadımdadır, biz məktəbdə oxuyanda hər il partaları rəngləyirdilər. O vaxt dərs kitablarımızı da Azərbaycandan gətirirdilər. Hər tətildən qayıdanda partaların rənginin və kitabların qoxusunu hiss edirdik. İndi də o qoxu burnumdadır. Sizin oxuduğunuz məktəbə gələndə də o hissləri yaşadım. Məktəb illərini dəyərləndirmək lazımdır. Mən həmişə kəndimizi yuxumda görürəm. 1982-ci ildə kənddən çıxaraq Bakıya gəlmişəm”. Millət vəkili sözünə davam edərək sonrakı təhsil illərini xatırladı: “1982-ci ildə məktəbi bitirib Bakıya gəldim. Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunun politologiya fakültəsini və Dövlət İdarəçilik Akademiyasının dövlət və bələdiyyə idarəetməsi fakültəsini bitirdim. Hazırda siyasi elmlər doktoru, Bakı Dövlət Universitetinin professoruyam. dörd dərslik, dörd monoqrafiya və üç kitabın müəllifiyəm. Milli Məclisin deputatıyam. Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvüyəm. Biz ona görə bu cəmiyyətə borcluyuq ki, potensialımıza uyğun böyümək imkanı verir. Mənim 59 yaşım var. Hər birinizin bu yaş dövrü gələcək. Əsas odur ki, “mənim missiyam nədir?” sualına cavab verə biləsiniz”. H.Babaoğlu qeyd etdi ki, hər bir cəmiyyəti inkişaf etdirən onun fikir istehsalıdır: “Hansı cəmiyyətdə fikir, ideya istehsalı varsa, o cəmiyyət inkişaf edir. Biz daim özümüzü inkişaf etdirməliyik. Burada varislik məsələsi də var. Hansı cəmiyyəti formalaşdırsanız, övladlarınız o cəmiyyətdə yaşayacaq. Sizin nəsil indi bizim formalaşdırdığımız cəmiyyətdə yaşayır”.

### OXUMAĞI EHTİYACA ÇEVİRİN

Deputat bildirdi ki, Milli Məclis təhsil məsələlərini daim diqqətdə saxlayır: “Elə bir iclas yoxdur ki, məktəb problemindən danışılmasın, dərsliklərin keyfiyyəti müzakirə olunmasın, məktəblərin təmiri məsələsinə toxunulmasın”. Millət vəkili şagirdlərin peşə seçimi məsələsinə də toxundu: “İndi ixtisaslar xeyli dəyişib. Bir vaxtlar deyirdik ki, həkim və ya mühəndis olaq. İndi deyirlər ki, sağ qulaqla sol qulağın quruluşu fərqli olduğu üçün hər birinin öz həkimi olmalıdır. Ona görə, sizin ixtisas seçiminiz konkret bölgü üzrə olmalıdır. Peşə ixtisası çox vacibdir. Hazırda nazirlik bu sahəyə xüsusi önəm verir”. H.Babaoğlu “Siz oxumağı vərdişə, daxili tələbata, ehtiyaca çevirin”, -deyə məktəblilərə tövsiyə verdi: “Onda yazıçı da, şair də, mühəndis də, deputat da, icra başçısı da, prezident də olacaqsınız. Onda qarşınızda heç nə dayana bilməyəcək. Amma nəyi öyrəndiyinizin də fərqində olmalısınız. Maraq dairəniz haradırsa, oraya fokuslanın. Bu da müasir dövrün tələbidir”.

Millət vəkili hazırkı dövrün gəncliyinin həyat tərzindən, davranışlarından razı qaldığını qeyd etdi: “Son dövrlər mən elə bir gəncliklə qarşılaşıram ki, onların cəsarəti, bilgisi, təfəkkürü xoşuma gəlir. Dünən torpaqlarımızı düşməndən azad edən gənclərdən sizi 3-4 yaş ayırır. Sizdən 3-4 yaş böyük gənclər bizə tarixi Zəfəri yaşatdılar. Bu gəncliklə kim fəxr eləməz?”

### “BİZ QƏRBİ AZƏRBAYCANA QAYIDACAĞIQ”

H.Babaoğlu Qərbi Azərbaycana qayıdışla bağlı auditoriyanın suallarını da cavablandırdı: “Qərbi Azərbaycan ölkəmizin tarixi coğrafiyasında mədəniyyətimizin bir parçasıdır. Təəssüf ki, son 100 ildə bizdən qoparılıb və orada süni dövlət yaradılıb. 2022-ci il dekabrın 24-də Prezident İlham Əliyev bir qrup qərbi azərbaycanlı ziyalılarla görüş keçirən zaman həmin məsələnin konseptual əsasını milli prioritet kimi müəyyənləşdirmişdi. Bundan sonra Qərbi Azərbaycana Qayıdış Konsepsiyasında bu məsələ beynəlxalq hüquqa uyğun olaraq sülh prinsipləri əsasında formalaşıb. Qərbi Azərbaycan İcmasının qayıdışla bağlı müxtəlif beynəlxalq təşkilatlara, o cümlədən Ermənistanın Baş naziri Nikol Paşinyana müraciətləri olub. Amma Ermənistan tərəfindən hansısa cavab alınmayıb. Azərbaycan Prezidenti İlham Əliyev müsahibəsində məhz həmin məsələyə toxunaraq beynəlxalq hüququn təməl prinsipləri olan hər bir insanın doğulduğu yerdə yaşamaq hüququnun tanınmasına Ermənistanın cavab verməməsini vurğulayıb”. H.Babaoğlu qeyd etdi ki, hər gün internet vasitəsilə kəndlərinə, oradakı evlərinə baxır: “Bu haqda xatirələrimi kitabımda yazmışam. Biz Qərbi Azərbaycana qayıdacağıq. Bu, siyasi iddia deyil, hüquqi məsələdir. Bu məsələdə Prezident bizim arxamızdadır. Qərbi Azərbaycana qayıdış bizim tarixi yaddaşımız və emosional ruhumuz olacaq. Qərbi Azərbaycana qayıdış ümummilli məsələdir. Dünənə qədər bizim mübarizəmizin hədəfi Dağlıq Qarabağ idi. Bu gün mübarizəmizin hədəfi Qərbi Azərbaycandır. Siz tariximizi mükəmməl bilməlisiniz. Bu, yaddaşımızın bir hissəsi olmalıdır”.




Fotolar: Əjdər İbrahimov - Global Photostock

AZƏRBAYCANLI RƏFİQƏ İLƏ RUMIN VLADIN İSTANBULDAN BAŞLAYAN FİLM KİMİ SEVGİ HEKAYƏSİ “KASPİ”DƏ

# AZƏRBAYCANLI XASİYYƏTİNƏ SAHİB RUMINİYALI KÜRƏKƏN

HAZIRLADI

Zərif Salmanlı
zarifsalmanli@kaspi.az

**Vlad Miron:** “Azərbaycanlı xanımlar ailəcanlı olurlar. Onlarda hələ də ailəyə hörmət etmək, qayınana, qayınataya qulluq, övlada baxmaq kimi xüsusiyyətlər var. Mən də ailəmdə belə görmüşəm. Rumıniyada da belə qızlar var, amma çox azdır”.

Sevgi bəzən ən gözlənilməz anlarda, məkanlarda başlayır və möhtəşəm hekayələrə çevrilir. Bəzən isə eşq gözümüzün önündə, ən yaxınımızda olur. Filmlərdə qonşu qızı ilə tanış olmaq və ailə qurmaq səhnələrini yəqin ki, çoxumuz izləmişik. Lakin filmlər də real həyatdan götürülməyibmi? Demək ki, real həyatda da belə təsadüflər və xoşbəxtliklər olur. Elə bizim hekayənin qəhrəmanları kimi. Budəfəki “Ailə” rubrikamızın qəhrəmanları Rəfiqə və Vlad Mirondur. Onlar da filmlərdə olduğu kimi tanış olublar. Hazırda həyat filmlərini bərabər çəkməyə davam edirlər.

### “TANIŞ OLMAMIŞDAN ƏVVƏL DƏ ONU BƏYƏNMİŞDİM”

Rəfiqə cütlüyümüzün filmlərə ssenari mövzusu ola biləcək tanışlıq hekayəsindən belə bəhs etdi: “Biz Vladla İstanbulda tanış olmuşuq. Vlad qonşum olub. Təhsilimi tamamladıqdan sonra İstanbulda həm yaşayıb, həm də işləyirdim. Tanışlığımızdan öncə onu bir neçə dəfə məhəlləmizdə görmüşdüm. Açığı, kənardan görünüşü xoşuma gəlmişdi. Bir gün Vladı marketdə gördüm. Satıcı qızdan bir məhsulu ingiliscə soruşurdu. Lakin türk satıcı onu anlamırdı. Bu zaman ona kömək etdim. Tanışlığımız bu şəkildə baş tutdu. Ona dedim ki, nə zaman köməyə ehtiyacınız olsa, əlimdən gələni etməyə hazıram. Vlad məni kofe içməyə dəvət etdi. İlk görüşümüz məhəlləmizdəki kafedə olmuşdu”.

Rəfiqə deyir ki, Vladla tanış olarkən ağlında münasibət və ya evlilik fikri olmayıb: “Söhbət əsnasında gələcəklə bağlı sual verdim. Cavabında evlənmək, ailə sahibi olmaq istədiyini bildirdi. Bu, məni daha da cəzb etmişdi. Adətən oğlanlar evlilik mövzusundan qorxurlar. Vladın bu şəkildə ailəcanlı olması mənə qəribə gəldi. İlk görüşümüzdən sonra onun da məndən xoşu gəldiyini hiss etdim. Vlad məni növbəti görüşlərə çağırdı. Lakin bir az ehtiyat edirdim. Çünki əcnəbi idi, tanımırdım. Ailələrimiz arasında münasibətin necə olacağını bilmirdim. Amma ikinci görüşə də getdim. Elə oldu ki, söhbətimiz tutdu”.

### “NƏ RUMIN, NƏ DƏ TÜRK QIZLARINA BƏNZƏYİRDİ”

Vlad isə həyat yoldaşını ilk gördüyü günü belə xatırlayır: “Rəfiqəni ilk gördüyümdə onun çox fərqli olduğunu hiss etdim. Nə rumın, nə də türk qızlarına bənzəyirdi. Əcnəbi olduğu hər halından bilinirdi. Həmçinin mənim orada tanıdığım kimsə yox idi, amma o, mənə kömək etdi. Tanımadığı birinə kömək etməyə çalışması mənə təsir etmişdi. Düşünürəm ki, kimyamız da bir-birinə uyğun idi”.

### “TANIŞLIQ DÖVRÜMÜZ CƏMİ İKİ HƏFTƏ ÇƏKDİ”

Sevgi haqqında düşünməyən Rəfiqəni münasibətə razı salan Vlad, iki həftə ərzində ona evlilik təklifi edib: “Vlad gəmidə ikinci kapitan olaraq çalışır. Bizim tanışlığımız onun evdə olduğu dövrə düşüb. Gəmiyə gedəcəkdi və iki ay orada qalacaqdı. O səbəbdən bizim tanışlıq dövrümüz cəmi iki həftə çəkdi. İki həftənin sonunda mənə evlilik təklif etdi. Heç gözləmədiyim şəkildə mənə dedi ki, “ailəm sənin ailənlə tanış olmaq istəyir, onlara xəbər et”. Mən ailəmə vəziyyəti başa saldım. Mart ayının sonları tanış olduq, iyulda nişanlandıq, sentyabrda ailə qurduq”.

Rəfiqənin sözlərinə görə, ilk başda iki həftə ərzində evlilik qərarı almaq ona təhlükəli görünsə də, Vlad bu şübhələri də yox etməyi bacarıb: “İki həftəlik münasibətimizdə aşiq olmuşduq. Amma doğrumu, yoxsa səhvmi etdiyimizi bilmirdik. Düzdür, mən ilk görüşdən Vladın düzgün insan olduğunu hiss etmişdim. Utancaq, ailəcanlı biri idi. Bundan cəsarətlənib mənim də ailə qurmaq istəyim olduğunu bildirdim. Bəlkə də bu, onun qərar verməsinə kömək edib. Əcnəbi olsa da, mən ondan özümə qarşı hər hansı artıq hərəkət görmədim. O zaman anladım ki, mənə qəlbən aşiq olub”.





**Rəfiqə Miron:** *Vlad Avropa kişilərindən çox fərqlənir. Məsələn, qısa və açıq geyimdən xoşu gəlmir. Bəzən elə bilirəm ki, Vlad da azərbaycanlıdır.*

### “ÇOXLARI DEYİRDİ Kİ, TÜRK QIZLA EVLƏN”

Vladın isə bu qərarı verməsinə səbəb gələcək həyat yoldaşının ailəsinə hiss etdiyi doğmalıq olub: “İki həftə ərzində ünsiyyətimizdən “o mənim xanımım olmalıdır” deyə hiss etdim. Təbii ki, hər ikimiz risk aldıq. Amma Rəfiqə ailəsindən danışdıqca, mən onlara qarşı doğmalıq hiss edirdim. Danışdıqlarından da görürdüm ki, çox yaxşı insanlardır. Mənim ailəm kimi idilər. Beləliklə, qərarımdan tam əmin oldum. Fikrimcə, insanlar münasibət qurduqda qarşı tərəfin ailəsinə baxmalıdır. Ailə bağları möhkəm olmalıdır.

İlk başda bir az ehtiyat edirdim. Çünki bilmirdim ailəsi xarici oğlana necə münasibət göstərər. Həm də istəməzdim ki, mənə görə ailəsi ilə arası dəysin, münasibətləri korlansın. Amma Rəfiqə hər dəfə deyirdi ki, narahat olma, hər şey yaxşı olacaq. Mən Rumıniyanın Kostanca vilayətindənəm. Burada müsəlmanlar, tatar ailələr çoxdur. Onlar rumıniyalılarla evlənmir. Mənə də çox adam deyirdi ki, türk qızla evlən”.

### “RUMINİYADA BELƏ QIZLAR ÇOX AZDIR”

Vlad deyir ki, onun üçün ailə və dəyərlər çox önəmlidir. Elə bu səbəbdən də azərbaycanlı xanımla ailə qurub: “Azərbaycanlı xanımlar ailəcanlı olurlar. Mən də bu tip münasibət istəyirdim. Ailə mədəniyyətinə çox önəm verirəm. Düşünürəm ki, azərbaycanlı qadınlar bu məsələlərdə orta həddi tuta biliblər. Onlarda hələ də ailəyə hörmət etmək, qayınana, qayınataya qulluq etmək, övlada baxmaq kimi xüsusiyyətlər var. Bu, mənim üçün önəmli idi. Ailəmdə də belə görmüşəm. Rumıniyada da belə qızlar var, amma çox azdır”.

### “QAYINANAM HƏR ZAMAN MÜSƏLMAN GƏLİNİ OLMASINI ARZULAYIB”

Rəfiqəni anasına bənzədən Vlad, elə tanış olduqları gün anasına ondan danışıbmış. Rəfiqə münasibətlərinin ən böyük dəstəkçisi olan qayınanası ilə tanışlıqlarından da söz açdı: “Vlad gəmidə olarkən mən anası ilə Türkiyədə tanış oldum. Tərcümə ilə danışsaq da, anası ilk andan məni çox sevdi. Münasibətimizin dəstəkçilərindən biri də qayınanam olub. Vlad tərəddüd edərkən anası onun qərarını dəqiqləşdirməsində rol oynayıb. Qayınanam hər zaman müsəlman gəlini olmasını arzulayıb”.

Cütlüyümüz bir-birinin anası ilə əvvəlcədən tanış olsa da, qudalar bir-birini nişan günü tanıyıb: “Düşünürdüm ki, Vladın ailəsi xristian olduğu üçün bəlkə mədəniyyətlərimiz bir-birinə çox uzaq gələr. Lakin tanış olduqda gördüm ki, əksinə, ailələrimiz bir-birinə çox bənzəyir. Vladın da anası olduqca ailəcanlıdır. Ailələrimiz nişanda tanış oldular. Dili bilməsələr də, elə ilk dəfədən çox gözəl münasibət yaratdılar”.

### “ƏN SEVDİYİM ADƏTİNİZ XINA MƏRASİMİDİR”

Nişandan söz düşmüşkən, Vlad bəyəndiyi adətlərimizdən də danışdı: “Ən sevdiyim adətiniz xına mərasimidir. Çünki hər kəs Rəfiqənin ətrafında fırlanırdı. Mənə nişanda üzük lentinin kəsilməsi də qeyri-adi gəlmişdi. Toyda rəqsləriniz maraqlı idi. Rəqs etməyi sevməsəm də, məni oynadırdılar. Ən gülməlisi isə hər kəs mənimlə Azərbaycan dilində danışırdı. Amma təbii ki, mən anlamırdım”.

### “ŞİRİN ÇAY GƏTİRMƏYİM ONLARA MARAQLI GƏLMİŞDİ”

Rəfiqənin sözlərinə görə, adətlərimiz rumıniyalılara yad olsa da, evlilik prosesində bütün adətlərə əməl olunmuşdu: “Hətta nişandan öncə istəmə mərasimi də etmişdik. Şirinçay gətirməyim onlara maraqlı gəlmişdi. Bol yemək olması onlar üçün qeyri-adi idi. Çox bəyənmişdilər. Ən çox da ləvəngimizi. Hətta indi də mənə deyirlər ki, Yeni ildə mütləq ləvəngi bişir. Toyumuza Rumıniyadan qohumları gəlmişdi. Onlar rəqslərimizi bilməsələr də, musiqilərimizi anlamasalar da, hamısı mahnılarımıza oynayırdı. Mən tanışlıq olmamışdan öncə adətlərimizi onlara göstərmişdim. Hər birini izah edirdim, ardıcıllığını başa salırdım. Həmin an yadlarından çıxanda da kömək edirdim”.

### “ASTARANIN KƏNDLƏRİ ÇOX MÖHTƏŞƏMDİR”

Vlad Azərbaycan haqqında belə bəhs etdi: “Azərbaycan haqqında eşitmişdim. Amma əvvəl burada olmamışdım. Heç bir azərbaycanlı tanışım da olmamışdı. Anam da Azərbaycanı yemək videolarından tanıyırdı. Hətta anamla birlikdə izləyirdik. Bakı çox gözəldir, təmizdir. İstanbul kimi sıxlıq deyil. Daha sakitdir. Astaranın kəndləri də çox möhtəşəmdir, dağ, meşə valehedicidir. Lənkəranda Xanbulanda və bir neçə digər kəndlərdə olmuşuq. Qobustan da çox gözəldir. Yanardağı da bəyəndim. Qız qalası və İçərişəhərin də gözəlliyinə heyran qaldım”.

Vlad ölkəmizi bəyənməklə yanaşı, yeməklərimizə də aşiq olub: “Yeməklərinizdən kabab, ləvəngi, balıq, bozbaş, paxlava, qutab, düşbərə dadmışam. Paxlavanız çox ləzzətlidir. Aşqara və yarpaq dolması ən sevdiyim təamlardır”.

### “TELEFONU “ANA QURBAN” DEYƏRƏK AÇIR”

Rəfiqə bildirdi ki, Vladın ailəsi də bayramlarımıza çox böyük maraq göstərir: “Ailələrimiz tanış olduqdan sonra bir-birimizə bayramlarımızdan bəhs etdik. Novruzu İstanbulda qeyd etmişdik. Bu il isə Novruz bayramını onun ailəsi ilə birlikdə Azərbaycanda qeyd etmək istəyirik. Oddan tullanmaq, papaq atmaq, səməni cücərtmək, - bunların hər biri ilə yerindəcə tanış olmaq istəyirlər”.

Rumıniyalı kürəkən ölkəmizi o qədər sevib ki, hətta artıq sözlərimizi də istifadə edir: “Vlad artıq türk dilini öyrənib deyə, Azərbaycan dilini də az da olsa, anlayır. Mənim ailəmlə danışanda nə dediklərini başa düşür. Hətta anam zəng edəndə telefonu “ana qurban” deyərək açır. Türkcə danışsa da, bəzən Azərbaycan sözlərindən də istifadə edir. “Pullu”, “şirin”, “gözəl” kimi sözlərimizi işlədir”.



## “VLADIN AİLƏSİ ƏVVƏLDƏN DONUZ ƏTİ YEMİR”

Türkiyədən sonra Rumıniyada yaşayan Rəfiqə oradakı həyat şəraitindən də söz açdı: “Vladın işi ilə bağlı Azərbaycanda yaşaya bilmərik deyə seçimimiz Rumıniya oldu. Kostanca şəhəri mənə Azərbaycanı, Bakını, Astaranı xatırladır. Şəhər çox sakitdir. Burada özümü olduqca təhlükəsiz hiss edirəm. Dili bilməsəm də, buradakı həyat mənim üçün çox maraqlıdır. Tatar və türklərin olması da məni doğma hiss etdirir. Burada salon xərcləri, restoranlarda qiymətlər bir az bahadır. Amma geyim Azərbaycandan, Türkiyədən ucuzdur. Rumıniyada mənə qəribə gələn bazar günləri evdə heç bir iş görməmələridir. “Müqəddəs Nikolay” deyə bir bayramları var. Hansı ki, həmin gün adı Nikolay olan hər kəsə hədiyyələr verilir. Digər müqəddəs şəxslərin də adına bu bayramlar qeyd olunur. Əsasən də uşaqlar daha çox sevinir. Bu bayramlar mənim üçün fərqli və maraqlı idi. Vladın ailəsi əvvəldən donuz əti yemir. Bunu da öyrənəndə mənə qeyri-adi gəlmişdi”.



### “BURADA BÜTÜN QADINLAR MAŞIN SÜRÜR”

Fərqli ölkədə olsa da, orada onu ailəsinin yanında kimi hiss etdirən məhz Vladın ailəsidir: “Qayınanam mənə çox dəstək olur. Hər zaman mənim tərəfimi tuturlar. Vlad tək övlad olduğu üçün məni qızları kimi görürlər. Anam və atam qədər sevgi dolu yanaşırlar. Vlad mənim xətrimə dəydikdə onunla danışırlar, məni haqlı çıxarırlar”.

Mübahisəyə səbəb olan xasiyyət bəzən də ən sevilən olur. Cütlüyümüzdə də belə imiş: “Vlad Avropa kişilərindən çox fərqlənir. Məsələn, qısa və açıq geyimdən xoşu gəlmir. Amma bəzən bu qədər keçmiş düşüncəli olmasını bəyənmirəm. Elə bilirəm ki, Vlad da azərbaycanlıdır. Çünki bəzən çox mühafizəkar ola bilir. Vlad da deyir ki, qadın axşam çölə çıxmaz, zamanında evə qayıdar. Arada olur ki, bunlara görə mübahisə edə bilirik. Amma çox hallarda bu xasiyyəti xoşuma gəlir. Məni hər yerdə müdafiə etməsi çox gözəldir”.

Vladın bizə oxşayan tək xasiyyəti mühafizəkarlığı deyil. O da yoldaşına maşın sürməyi öyrədərkən səbirsiz davranır: “Mənim Rəfiqə ilə daha çox mübahisəm maşın sürmək üstündə olur. Burada bütün qadınlar maşın sürür. İstəyirəm o da öyrənsin. Bir az ehtiyat edir, çəkinir deyə bəzən buna görə mübahisə edirik. Rəfiqə mənə deyir ki, bu xüsusiyyətlərinə görə azərbaycanlılara çox bənzəyirsən”.

# “BAKCELL” “İNNOVASİYALARLA MÜXTƏLİFLİYƏ DOĞRU” TƏDBİRİNƏ DƏSTƏK OLDU




Tədbir “Birgə və Sağlam” İctimai Birliyi tərəfindən yaradılan “Kaşalata” kafedə təşkil olunub. Müzakirələrə diplomatik nümayəndəliklərdən, qeyri-hökumət təşkilatlarından və media sektorundan olan nümayəndələr qatılıb.

İnnovasiya və sürət lideri “Bakcell” inklüzivliyə dəstək strategiyası çərçivəsində “Birgə və Sağlam” İctimai Birliyi tərəfindən yaradılan “Kaşalata” kafedə “İnnovasiyalarla müxtəlifliyə doğru” adlı tədbir təşkil edib. Tədbirin məqsədi “Bakcell” ilə “Birgə və Sağlam” İctimai Birliyi arasındakı tərəfdaşlığın qeyd olunması və kafedə çalışan gənclərlə görüş olub.

**40-A YAXIN QONAQ İŞTİRAK EDİB**

Tədbir çərçivəsində “Bakcell”in baş icraçı direktoru Klaus Müller, Korporativ kommunikasiyalar üzrə direktoru Aysel Süleymanova, “Birgə və Sağlam” İB-nin sədri Aytən Eynalova, İB-in Valideyn Məşvərət Şurasının sədri Natəvan Məmmədova və millət vəkili Nigar Arpadarai çıxış ediblər. Tədbirə diplomatik nümayəndəliklərdən, qeyri-hökumət təşkilatlarından (QHT) və media sektorundan olan nümayəndələr də qatılıb və ümumilikdə 40-a yaxın qonaq iştirak edib.

**İNNOVASİYA CƏMİYYƏTİN HƏR BİR ÜZVÜNƏ FÜRSƏTLƏR YARATMALIDIR**

“Bakcell”in baş icraçı direktoru Klaus Müller çıxışında bu təşəbbüsün innovasiya və inklüzivlik baxımından şirkət üçün əhəmiyyətli olduğunu vurğulayıb: “İnnovasiya yalnız texnologiyalarla deyil, həm də cəmiyyətimizin hər bir üzvünə yeni fürsətlər yaratmaqla bağlıdır. “Kaşalata” kimi layihələr neyro-müxtəlifliyi olan gənclərin potensialını ortaya çıxararaq onların cəmiyyətə bərabərhüquqlu inteqrasiyasına və parlaq gələcəyinə zəmin yaradır. “Bakcell” olaraq innovativ həllərlə dayanıqlı və inklüziv cəmiyyətin qurulmasında töhfə verməkdən qürur duyuruq və gələcəkdə də bu kimi təşəbbüsləri dəstəkləməyə davam edəcəyik”.

**Məqsəd neyro-müxtəlifliyi olan şəxslərin rifahını dəstəkləməkdir**

“Birgə və Sağlam” İctimai Birliyinin məqsədi neyro-müxtəlifliyi olan şəxslərin və onların ailələrinin sosial rifahını dəstəkləməkdir. Bu məqsədlə autizmli şəxslərin cəmiyyətə inteqrasiyasını, inklüziv təhsili və məşğulluq imkanlarının artırılmasını hədəfləyən tədbirlər həyata keçirilir. Hazırda Birliyin nəzdində 2 Autizm Mərkəzi fəaliyyət göstərir. “Birgə və Sağlam” İctimai Birliyinin təşəbbüsü ilə təsis edilmiş “Kaşalata” kafe xüsusi qayğıya ehtiyacı olan gənclərin məşğulluğunu dəstəkləyən mühüm bir sosial layihədir.

“Bakcell” Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda “Bakcell” üç milyondan çox müştərini yüksək innovativ, keyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Şirkət süni intellektə əsaslanan həllər vasitəsilə Azərbaycanın davamlı inkişafına töhfə verir və Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biridir.

“Bakcell” müxtəlif ölkələrdə telekommunikasiya, enerji, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən “NEQSOL Holding” beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.



# SOCAR ABŞ şirkəti ilə əməkdaşlıq imkanlarını araşdırır

Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) ABŞ-nin “OliverWyman Group” şirkəti ilə enerji sektoru üçün innovativ həllərə diqqət yetirərək yeni əməkdaşlıq imkanlarını araşdırıb.

“Report” xəbər verir ki, bunu SOCAR prezidenti Rövşən Nəcəf özünün “X” sosial şəbəkəsindəki hesabında yazıb.

O, ABŞ-nin “Oliver Wyman Group” şirkətinin prezidenti və Baş icraçı direktoru Nik Stader (Nick Studer) ilə görüşüb.

“Aşağı karbonlu texnologiyalar və rəqəmsal transformasiya sahəsində irəliləyişlər daxil olmaqla, dayanıqlı inkişafın təmin edilməsi üçün SOCAR-ın hazırkı təşəbbüslərini müzakirə etdik”, - deyə R.Nəcəf qeyd edib.

Qeyd edək ki, “OliverWyman Group” - idarəetmə və məsləhət xidmətləri göstərən 40 ildən artıq təcrübəyə malik olan dünyanın ən məşhur konsaltinq şirkətlərindən biridir. 1984-cü ildə ABŞ-də yaradılan və baş ofisi Nyu-Yorkda yerləşən konsaltinq şirkətinin bütün dünyada 60 ofisi və təqribən 6-7 min əməkdaşı var. “OliverWyman Group”un ofisləri əsasən Avropa, Şimali Amerika, Yaxın Şərq və Asiya bölgəsində yerləşir.

# DEPUTAT İÇMƏLİ SU PROBLEMİNDƏN DANIŞIB

“İçməli su probleminin həlli üçün yağıntı sularını təmizləyərək istifadə etmək lazımdır”. “Report” xəbər verir ki, bunu deputat Afət Həsənova Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin yanvarın 24-də keçirilən iclasında bildirib. Onun sözlərinə görə, bu gün kənd yerləri və rayonlarda yaşayan əhali ciddi problemlərlə üzləşir: “Biz Bakıda oturmuşuq, burada su daxil olmaqla, hər şey var. Amma ucqar ərazilərdə vəziyyət fərqlidir. Rayonlarda içməli suyun çatışmazlığı ciddi bir problemdir. Su mənbələri azalır”.

Deputat bir müddət rayonlarda işlədiyini vurğulayıb: “Yayın ortasında insanlar müraciət edirlər ki, içməli su yoxdur. Belə hallarda biz bilirik ki, su mənbələri tükənir. Amma bununla yanaşı, yağıntı sularını niyə istifadə etmirik? Bu, böyük bir məsələ deyil. Su mənbələri yaradıla bilər, sular toplanıb təmizlənə və sonra istifadə edilə bilər”.


Afət Həsənova

Deputat bildirib ki, ekoloji mədəniyyət baxımından bu məsələlərə köklü yanaşılmalıdır: “Bu problemləri həll etməyə çalışmalıyıq”.

Kaspi
Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Rüstəm Qaraxanlı, Xanım Aydın, Aqşin Kərimov, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet “Azərbaycan” nəşriyyatında çap olunub.
Sifariş: 177
Tiraj: 2350
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

ORTA VƏ UZUNMÜDDƏTLİ PERSPEKTİVDƏ NEFT BAZARINI NƏ GÖZLƏYİR?

# AĞ EVİN UCUZ NEFT HƏDƏFİ

Donald Tramp dünyada neftin ucuzlaşmasını hədəfləyir. Lakin Ağ Ev rəhbərinin bu hədəfinin reallaşacağı o qədər də inandırıcı görünmür. Səbəbləri ekspertlər açıqlayırlar.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az





ABŞ-nin yeni prezidenti Donald Tramp dünyada neft qiymətlərinin aşağı salınması üçün ölkəsində "qara qızıl"ın hasilatını artırmaq niyyətindədir. Artıq bu istiqamətdə müəyyən qərarlar da qəbul edib. Neft bazarı Ağ Ev rəhbərinin məlum qərarına görə, qiymətlərin ucuzlaşması ilə reaksiya göstərib. Bəs orta və uzunmüddətli perspektivdə neft bazarını nə gözləyir, proqnozlar necədir?

### "HASİLATÇILAR TƏLƏBDƏN ARTIQ İSTEHSALDA MARAQLI DEYİLLƏR"

Enerji məsələləri üzrə ekspert Zəfər Vəliyevin fikrincə, neft qiymətləri Donald Trampın vəzifəyə qayıtdığı ilk gün ərəfəsində ucuzlaşdı: "ABŞ prezidenti vəzifəsinin ilk günündə Paris İqlim Sazişindən çıxmaqla bağlı fərman imzalayıb. Energetika Nazirliyinə hökumətin yeni LNG (qaz) ixracına icazə ərizələri ilə bağlı qüvvədə olan məhdudiyyətləri aradan qaldırmağı tapşırıb. Tramp strateji neft ehtiyatları istisna olmaqla, ABŞ-nin kommersiya təyinatlı neft ehtiyatlarını maksimum səviyyədə artırmağa söz verib".

Ekspert bildirir ki, yeni prezidentin hasilat məsələsində proqnozları özünü doğrultmaya bilər: "ABŞ-də neft hasilatını artırma cəhdləri bazar şərtlərinə ziddir, istehsalçı şirkətlərin siyasətinə uyğun deyil. Çünki ABŞ-də hasil edilən neftin 80 faizindən çoxu yüngül neftdir. Yüngül neftin beynəlxalq bazarlarda satış imkanları hazırda elə də yüksək deyil".



Zəfər Vəliyev

Ekspertin sözlərinə görə, bu neftin oktan ədədi aşağıdır. Ondan yüksək keyfiyyətli təyyarə yanacağı, avtomobil benzininin istehsalı elə də mümkün deyil: "Həmin neft mütləq ağır neftlə qarışdırılmalıdır, sonra emal edilməlidir. ABŞ-də neft hasilatının və ehtiyatların artımı bazarda yüngül-ağır neft balansına təsir edə bilər. Lakin neftin kəskin ucuzlaşmasına təsir edə bilməz. Çünki ABŞ-nin hasil etdiyi neftin beynəlxalq bazarda rəqabət qabiliyyəti zəifdir".

Onun fikrincə, ABŞ-də neft emal edən şirkətlər Prezident Administrasiyasının tələbi ilə neft hasilatını artırarsa, bu, qısa müddət üçün effekt verə bilər: "Amma uzunmüddətli perspektivdə neft satılmayacaqsa, emal edilməyəcəksə, hasilatçılar satılmayan neft həcmlərini nə edəcəklər? Bu baxımdan ABŞ-də hasilatçılar tələbatdan artıq neft hasilatında maraqlı deyillər".

## QİYMƏT 75-80 DOLLAR SƏVİYYƏSİNDƏ OLACAQ

Z.Vəliyevin sözlərinə görə, neft qiymətlərində kəskin eniş gözlənilmir: "Digər tərəfdən, qlobal bazarda neft qiymətlərini dəstəkləyən amillər də olduqca çoxdur. ABŞ-nin Rusiyanın neft ixracına və tanker zəncirinə tətbiq etdiyi sanksiyalardan sonra artan neft qiymətləri onu deməyə əsas verir ki, geosiyasi amillər bu il də neft qiymətlərinin müəyyənləşdirilməsində əsas rol oynamaqda davam edəcək. İran neftinin satış imkanlarının məhdudlaşdırılması da neftin yüksək qiymətlərini il boyu dəstəkləyəcək. Belə olan təqdirdə bazarda tələbdən artıq yüngül neft profisitinin aradan qalxma ehtimalı güclənəcək. Xüsusilə Asiya bazarlarında Rusiya, İran və Venesuela neftinə alternativ mənbələrin axtarış cəhdləri yüksək olacaq".

Ekspert bildirir ki, əgər Rusiyaya, İrana tətbiq edilən sanksiyalar, Venesuelanın neft ixrac imkanlarının məhdudlaşdırılması daha da güclənərsə, o zaman bazarda kifayət qədər problemlər yaşanacaq. Yüngül və ağır neft arasında tarazlıq pozulacaq. Tarazlığın pozulması neft emalı zavodlarının fəaliyyətinə təsir göstərəcək: "Bu, qiymət artımına da təsir edəcək. 2025-ci ildə neft qiymətləri 75-80 dollar arasında dəyişəcək".

### TRAMP TARİFLƏRİ DƏ QALDIRMAQ İSTƏYİR

İqtisadçı Murad Calalovun fikrincə, Tramp administrasiyasının neft-qaz məsələləri üzrə əsas məqsədi daxili enerji qiymətlərini aşağı salmaqdır. Həmçinin ABŞ-nin enerji ixracını qlobal miqyasda genişləndirməkdir: "Trampın istəyi budur ki, ABŞ-də hasilatı artırmaqla neftin qiymətini aşağı salsın. Beləliklə, ixracı da artırsın. Amma tarifləri, rüsumları da artırmaq istəyir. Məsələn, Avropaya ixrac rüsumunu 10 faiz artırmaq fikrindədir".

## TRAMPIN PLANLARI YAŞIL ENERJİYƏ KEÇİDƏ ZƏRBƏ OLACAQ

İqtisadçının sözlərinə görə, burada əsas məsələ digər ölkələrin bu qərarlara necə yanaşmasıdır: "Avropa daha çox ətraf mühitin qorunmasına üstünlük verir. Amma Trampın yeni planlarında bu mövcud deyil. Hətta Prezident Administrasiyası beynəlxalq iqlim sazişlərindən çıxmağı, yaşıl enerji ilə bağlı olan təşəbbüslərin aradan qaldırılmasını planlayır. Yaşıl enerjidən uzaqlaşmaq istəyirlər. Bu məsələdə Avropa ölkələrinə maliyyə yardımı edilməli idi. Yəqin ki, bu artıq olmayacaq. Maliyyə yardımı gəlməyəcəyi üçün Avropanın yaşıl enerjiyə keçid layihəsi də uzanacaq. Bu səbəbdən, neft qiymətlərində eniş olsa da, ümumi baxdıqda Avropa üçün çox böyük mənfi təsirləri qaçılmazdır. Avropa İttifaqındakı ölkələrin yekun qərarları bu məsələlərin taleyini həll edəcək".

### "NEFTİMİZİN QİYMƏTİNİ QALDIRA DA BİLƏRİK"

M.Calalov yeni qərarların ölkəmizə təsirinə də toxundu. Onun sözlərinə görə, Avropanın neft və qazdan asılılığı yenidən artır: "Avropa nefti Rusiyadan alırdı. Amma hazırda bu mümkün deyil. Çünki Rusiya və Ukrayna müharibəsinə görə, Avropaya ixracda böyük problemlər var. ABŞ-nin planlarının dəyişməsi Avropanın Azərbaycandan asılılığını artıracaq. İstəsək, neftimizin qiymətini qaldıra da bilərik".



Murad Calalov

# İŞLƏYƏN XƏSTƏLƏRİN BÜLLETEN DƏRDİ



Xəstə insanın xəstəxanaya həkim müayinəsinə getməsi yoluxmanın artması deməkdir. Əgər həkim çağırışa gəlmirsə və israrla xəstəni poliklinikaya dəvət edirsə, bu halda bütün məsuliyyət həkimin üzərinə düşür. Çağırış varsa, mütləq yerinə yetirilməlidir.

SEVİNC ABBASOVA

Son günlər əhali arasında geniş yayılan yeni növ qrip virusu narahatlığa səbəb olub. Mütəxəssislər təşvişə düşməyə ciddi əsas olmadığını bildirirlər. Bununla yanaşı, hər hansı narahatlığı olan şəxslərə virusdan qorunmaq üçün evdə qalmaları, işə getməmələri tövsiyə edilir. Amma müşahidələr göstərir ki, hazırda çalışan vətəndaşların bülletenə çıxması ilə bağlı problemlər var. Xəstələrdən poliklinikaya gəlmələri tələb olunur. Bəzən poliklinikaya müayinəyə gedənlərə "ciddi bir ağırlaşma yoxdur, bülleten aça bilmərik" cavabı verilir.

Bəs görəsən, xəstəyə bülleten açılması üçün təsdiqlənmiş prosedur necədir? Hansı hallarda bülleten açılmasından imtina edilə bilər?

### MAKSİMUM ALTI GÜN

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyindən (TƏBİB) "Kaspi"nin sorğusuna cavab olaraq bildirilib ki, xəstəlik vərəqəsinin verilməsi qaydaları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 8 yanvar tarixli 9 nömrəli "Sığortaolunanlar üçün xəstəlik vərəqələrinin elektron sənəd formasında tərtib edilməsi" haqqında təlimatı ilə tənzimlənir: "Sığortaolunanın tibb müəssisəsinə xəstəlik və ya xəsarət nəticəsində müraciəti əsasında əmək qabiliyyətini müvəqqəti itirdikdə xəstəlik vərəqəsi həmin gündən tibb müəssisəsinin həkimi tərəfindən hər dəfə üç gündən artıq olmayaraq, ümumiyyətlə həmin xəstəlik və ya xəsarət üzrə altı gündən artıq olmayaraq tərtib edə bilər. Məlumat üçün bildirək ki, vətəndaşın səhhətində ağırlaşma baş verərsə və nəticədə o, tibb müəssisəsinə müraciət etməzsə, bu zaman tibb müəssisəsinə çağırış verilməli və evdə həkim baxışı həyata keçirilməlidir. Bu zaman xəstəlik vərəqəsi üç gün müddətinə açılır. Növbəti mərhələdə vətəndaşın səhhəti onun tibb müəssisəsinə müraciət etməsinə mane olarsa, bu zaman yenidən çağırış verilməli və xəstəlik vərəqəsi növbəti üç gün müddətinə uzadılmalıdır".



Qurumun məlumatında o da vurğulanıb ki, əmək qabiliyyətinin müvəqqəti itirilməsi başlandıqdan sonra xəstəlik vərəqəsinin altı gündən çox artırılması Həkim Məsləhət Komissiyasının rəyi əsasında uzadılır. Altı gündən sonra vətəndaşın ümumi vəziyyəti kafi olmazsa, Həkim Məsləhət Komissiyasına göndərilir. Bu zaman xəstəlik vərəqəsi laborator, eləcə də instrumental analizlərin nəticəsi əsasında uzadıla bilər. Lakin vətəndaş mütləq altıncı gün tibb müəssisəsinə gəlməli və müvafiq analizlər verməli, tələb olunan halda instrumental müayinələrə cəlb edilməlidir.

## Hansı halda imtina edilə bilər?

Həkim-terapevt Rasif Bağırov deyib ki, xəstəyə bülleten açılması barədə qərar həkim tərəfindən verilməlidir: "Bununla bağlı ilkin olaraq xəstə tibb müəssisəsinə müraciət etməlidir. Bu zaman həkim xəstəni müayinə edir və xəstəlik diaqnozu qoyur. Əgər xəstəlik iş qabiliyyətinə təsir edirsə, həkim bülleten açılmasını əsaslandırır. Xəstəlik vərəqəsi yalnız akkreditə olunmuş tibb müəssisələri tərəfindən verilir. Bülleten xəstənin adını, soyadını, atasının adını, xəstəliyin başlama tarixini və müddətini, diaqnozunu və həkimin adını ehtiva edir. Xəstəliyin davam etməsi halında bülletenin müddəti uzadılır. Tam sağalma halında isə həkim bülletendə "bağlandı" qeydi aparır və iş qabiliyyətinin bərpa olunduğunu göstərir. Xəstəlik vərəqəsi işəgötürənə təqdim edilir".



Rasif Bağırov

Onun sözlərinə görə, xəstəliyin ağırlığından asılı olaraq, xəstəyə müalicə müddəti təyin olunur və bülleten açılır:" Tutaq ki, xəstənin temperaturu və öskürəyi varsa, amma ağciyərlərində hansısa dəyişiklik baş verməyibsə, ona bir həftəlik bülleten açılır və ev şəraitində müalicə kursu yazılır. Amma xəstənin temperaturu yoxdursa, ağciyərlərində dəyişiklik baş verməyibsə, sadəcə halsızlıq və bədən ağrıları varsa, o, dərmanlarını qəbul edərək işinə davam edə bilər. Bu halda bülleten açılmasından imtina edilir. Yaxud, xəstənin yüksək təzyiqi varsa, ona ilkin olaraq üç günlük bülleten açılmalı və müalicəsi aparılmalıdır".

## İnsanların müalicə almaq hüququ kobud şəkildə pozulur

Həkim bildirib ki, bəzən idarə və müəssisələr bülleten açdırmaq istəyən xəstə əməkdaşlarını işdən qovmaqla hədələyirlər: "Əksər idarə və müəssisələrdə xəstə əməkdaşları işə gəlməyə məcbur edirlər. Hətta bəzən qanunsuz şəkildə işçiləri işdən qovmaqla hədələyirlər. Halbuki hər bir xəstə insanın müalicə almaq hüququ var".

### HƏKİM ÇAĞIRIŞA GƏLMİRSƏ...

R.Bağırovun sözlərinə görə, bəzən həkimlər də bülleten açmaqdan imtina edirlər: "Adətən, vətəndaş xəstə halda poliklinikaya həkim müayinəsinə gedir. Həkim də fikirləşir ki, əgər xəstə həkim müayinəsinə gələ bilibsə, deməli, bunun vəziyyəti normaldır. Bu halda bülleten açmaqdan imtina edir. Ona görə də xəstələr çox vaxt evə çağırış edirlər. Çünki xəstə insanın xəstəxanaya həkim müayinəsinə getməsi yoluxmanın artması deməkdir. Əgər həkim çağırışa gəlmirsə və israrla xəstəni poliklinikaya dəvət edirsə, bu halda bütün məsuliyyət həkimin üzərinə düşür. Çağırış varsa, mütləq yerinə yetirilməlidir. Həkim gəlməsə, baş həkimə müraciət edilməlidir. Çağırışı yerinə yetirməyən həkim mütləq cəza almalıdır".



Adil Qeybulla

Tibb elmləri doktoru, professor Adil Qeybulla isə ölkədə mövcud epidemioloji vəziyyətin qarışıq olduğunu bildirərək qeyd edib ki, bu istiqamətdə əhali ciddi maarifləndirilməlidir: "Bir tərəfdən "Omicron" ştamının mutasiya variantları, digər tərəfdən yeni viruslar, eləcə də qrip virusunun özü xeyli qarışıq mənzərə yaradıb. Hazırda əhali arasında geniş yayılma imkanları var və biz xeyli insandan şikayətlər alırıq".

Ekspert vurğulayıb ki, müalicə yalnız həkim təyinatı əsasında aparılmalıdır. Xəstələr yataq rejimində olmalıdırlar: "Təəssüf ki, bəzən insanlar yataq rejimini gözləmirlər, işə çıxır, kollektivi yoluxdururlar. Əslində, poliklinikalarla vətəndaşlar arasında interaktiv əlaqə qurulmalıdır. Prosesə sahə həkimləri, pediatrlar cəlb olunmalıdır. Xəstələnən şəxslər qeydiyyata alınmalıdır. Yəni, bu sahədə düzgün sistem yaradılmadıqca, problemlər də ortaya çıxacaq. Bu gün vətəndaş bülleten ala bilmir, xəstə-xəstə işə gedib daha çox insanı yoluxdurur və problem daha ciddi şəkil alır. Hesab edirəm ki, bu məsələnin sistemə salınması həm profilaktika, həm də müalicə istiqamətində bir addım olacaq".

DEPOZİT FAİZLƏRİNİN YÜKSƏLMƏSİ İNSANLARIN SEÇİMİNƏ TƏSİR EDİR

# ƏHALİNİN BANKLARA İNAMI ARTIR

Azərbaycan banklarının faiz və onunla bağlı xərcləri bir milyard manatı keçib. Bəs onlar bu faizləri uzun müddət ödəmək imkanlarına malikdirlərmi? Depozit faizləri ilə bağlı ödənişlər bank sektorunu risk altına salırmı?



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az




2024-cü ilin 11 ayında (yanvar-noyabr) Azərbaycandakı bankların faiz və onunla bağlı xərcləri bir milyard manatı keçib. Mərkəzi Bankdan bildirilib ki, 2024-cü ilin 11 ayında bankların cəmi faiz xərcləri bir milyard 91,2 milyon manat, o cümlədən depozitlər üzrə faiz xərcləri 813,4 milyon manat təşkil edib. Depozitlər üzrə faiz xərclərinin 703,4 milyon manatını müddətli əmanətlər üzrə ödənilmiş faiz məbləğləri təşkil edib. Müqayisə üçün qeyd edək ki, 2023-cü ilin 11 ayında Azərbaycandakı bankların cəmi faiz xərcləri 755,7 milyon manat, o cümlədən depozitlər üzrə faiz xərcləri 536,5 milyon manat, həmçinin müddətli depozitlər üzrə faiz xərcləri isə 450,4 milyon manat təşkil etmişdi. Qeyd edək ki, son aylar banklar depozitlər üzrə faizləri yüksəldiblər. Bəs banklar bu faizləri uzun müddət ödəmək imkanlarına malikdirlərmi?

**İNFLYASİYA VƏ OĞURLUQDAN QORUMAQ ÜSULU**

Bank məsələləri üzrə ekspert Emin Kərimovun sözlərinə görə, depozit faizlərinin artırılması vətəndaşları əmanət yerləşdirməyə təşviq edir: "Depozitlər bankların əsas vəsait mənbəyidir. Depozitlərin artması banka əlavə pul vəsaitinin daxil olmasına şərait yaradır. Depozitlərin artması bankın qısa və orta perspektivdə vəsaitlə təmin olunmasına zəmanət verir. Bank vətəndaşdan depoziti müəyyən faizlə qəbul edir. Bu vəsaitləri kreditlərə, investisiyalara yatıraraq gəlir əldə olunur. Əmanətlərin Sığortalanması Fondu ilə milli valyutada 12 faiz, 3 faizə qədər isə xarici valyutada olan əmanətlər sığortalanır. Əmanətlər etibarlı şəkildə qorunduğu və səmərəli olduğu üçün insanlar pullarını banklara yerləşdirməyə üstünlük verir. Bununla da əmanətlərini həm inflyasiya, həm də oğurlanmaq kimi fiziki təhlükədən xilas etmiş olurlar. Depozit bəzi vətəndaşların əsas gəlir mənbəyidir. Faizlərin yüksəldilməsi onları daha çox vəsait qoymağa təşviq edir. Bu, vətəndaşların rifah halının yüksəlməsinə də xidmət edə bilər".

## GƏLƏCƏKDƏ DAHA DA ARTIRILMASI REAL DEYİL

E.Kərimov bildirdi ki, banklar hər ilin əvvəlində strateji planlarını, gəlir və xərclərini ciddi şəkildə təhlil edirlər: "Depoziti qəbul edərkən onun gələcəkdə ödənilməsini öncədən hesablayırlar. Depozitləri qəbul edərkən, kreditləri verərkən qısa və ya uzunmüddətli strategiyalarına əsasən faizləri müəyyənləşdirirlər. Qlobal səviyyədə baş verən iqtisadi və sosial proseslər təhlil edilir. Faizlərin bu şəkildə qalıb-qalmayacağını təxmin etmək çox çətindir. Çünki baş verəcək hadisələr çox şeyi dəyişə bilər. Banklar gəlir və xərclərinin planlarını nəzərə alaraq depozitlər üzrə faizlərin qaytarılması mənbələrini müəyyən edirlər. Depozit qəbulu bundan sonra artıq icra olunur".


Emin Kərimov

Ekspert gələcək dövr üçün əmanətlərin faizinin daha da artırılmayacağı qənaətindədir: "Depozit faizləri artırılsa da, 12 faizlik baryeri keçməsi mümkün deyil. Çünki sığortalanma məbləği nəzərə alınmalıdır. Əgər Əmanətlərin Sığortalanması Fondu faizləri artırmaq haqqında düşünərsə, banklar da depozit faizlərini daha çox artırarlar. Belə bir hal baş verərsə, kredit faizlərində də artım baş verəcək".

## MƏRKƏZİ BANK ÖZ MƏQSƏDİNƏ NAİL OLUB

İqtisadçı Xalid Kərimlinin fikrincə, hazırda banklar depozit faizləri ilə bağlı heç bir problem yaşamır: "Əgər banklar depozit faizlərini artırırsa, deməli, verdikləri kreditlərin də faizinə dəyişiklik ediblər. Bankların həm gəlirlərində, həm də xərclərində artım var. Problemli kreditlər olsa da, hazırda həm vətəndaşlarımız, həm də şirkətlər kreditlərini ödəmək qabiliyyətinə malikdirlər. Problem o zaman yaranardı ki, xərclər artır, amma gəlirlər artmır. Amma bu, hazırda düz mütənasibdir".

X.Kərimli qeyd etdi ki, depozit faizlərinin artırılması Mərkəzi Bankın apardığı siyasətin nəticəsidir: "Mərkəzi Bank ötən ilin sonlarında həm likvidlik əmsalına dair tələblər irəli sürdü, həm də bankların məcburi ehtiyat normasını artırdı. Əvvəl bu göstərici 1-2 faiz idisə, hazırda 20 faiz üzərindədir. Mərkəzi Bankın bu addımındakı məqsəd bank bazarında rəqabəti artırmaq idi. Böyük banklar da faiz xərclərini artırmış oldu. Beləliklə, insanlar banklara yönəlməyə başladılar. Nəticələrdən də görünür ki, Mərkəzi Bank öz məqsədinə nail olub".


Emin Qəribli

**"TƏYİN OLUNAN FAİZİ KEÇDİKDƏ ONLARA XƏBƏRDARLIQ EDİLİR"**

Azərbaycan Dövlət İqtisad Universitetinin dosenti Emin Qəribli bildirdi ki, depozitlər qısamüddətli olduğu üçün hər hansı risk mövcud deyil: "Bankların depozit faizləri uzunmüddətli olmur. Maksimum iki ilə qədərdir. Bu səbəbdən, elə də böyük risk yoxdur. Bankların depozit faizlərini kortəbii şəkildə artırması mümkün deyil. Çünki kreditlərə tələbat azalarsa, vətəndaşın qoyduğu əmanəti ödəmək lazım olduqda, problemlər yarana bilər. Tək risk bankdan kredit götürən vətəndaşlarla problem yaşaması ola bilər. Hansı ki, müəyyən iqtisadi vəziyyətlərdə vətəndaş borcunu geri ödəyə bilmir, beləliklə, bank da çətin vəziyyətə düşür".

E.Qəriblinin sözlərinə görə, banklar depozit faizlərini Mərkəzi Bankın nəzarəti altında tənzimləyirlər. Nəzarətdən kənar addım olarsa, fəaliyyətlərini sonlandırmaq riskləri var: "Depozit xərcləri artanda banklar üçün kredit vermək bir az çətinləşir. Mərkəzi Bankın müəyyən etdiyi faizlər də var. Amma banklar görürlər ki, indiki halda kreditə tələbat çoxdur. Bu səbəbdən depozitlərlə bağlı narahat deyillər. Banklar Mərkəzi Bankın tabeliyində olduqları üçün nəzarətdədirlər. Təyin olunan faizi keçdikdə onlara xəbərdarlıq edilir. Əməl etmədikdə lisenziyaları əllərindən alınır".

GƏNCLƏRİ AİLƏ QURMAQDAN ÇƏKİNDİRƏN ÇOXSAYLI SƏBƏBLƏR MÖVCUDDUR

# AZƏRBAYCAN AİLƏ MODELİ TƏHLÜKƏDƏ

Evlənənlərin sayında müşahidə edilən azalma ciddi suallar doğurub. Ekspertlər bu tendensiyanı iqtisadi, sosial, texnoloji və ənənəvi amillərlə izah edirlər.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Azərbaycanda evlənənlərin sayı azalıb. Bunu Dövlət Statistika Komitəsi də təsdiqləyir. Qurumun məlumatına görə, ötən ilin 11 ayında Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 46 146 nikah qeydə alınıb. 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə düşən nikahların sayı azalaraq 5,3-dən 4,9-a düşüb. Bəs nə üçün gənclərin evlənməyə marağı azalıb? Bunu müasir dövrün norması olaraq qəbul edək, yoxsa həyəcan təbili çalınmalıdır?

### "AZƏRBAYCAN AİLƏ MODELİ MƏHV OLA BİLƏR"

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Ailə məsələləri şöbəsinin baş məsləhətçisi Səmra Əliyeva "Kaspi" qəzetinə açıqlamasında bildirdi ki, bu statistika müvafiq qurumları narahat edir, görülən işlərə baxmayaraq, ailə münasibətlərində zəifləmə hiss olunur: "Bu isə nikahların sayının azalmasına, boşanmaların isə artmasına gətirib çıxarır".



Səmra Əliyeva

Qurum rəsmisi bildirir ki, bu tendensiyanın qarşısı alınmasa, gələcəkdə arzuolunmaz nəticələrlə rastlaşa bilərik: "Genofondun qoruyucusu olan, sosial və mənəvi əminliyi təmin edən nikah münasibətlərinin zəifləməsinin qarşısı alınmazsa, əlbəttə, arzuolunmaz nəticələr yarana bilər. Bu nəticələr həm demoqrafik vəziyyətə zərər vurar, həm də milli-mənəvi dəyərlər üzərində qurulmuş bütöv Azərbaycan ailə modeli məhv ola bilər".

### "PROBLEM DÖVLƏTİN DİQQƏTİNDƏDİR"

Mütəxəssis ümid edir ki, gənclərin nikah münasibətlərinə yanaşması ciddiləşəcək: "Dövlətin ailə siyasəti ölkəmizdə prioritet sahələrdəndir. Bu siyasətin daha da təkmilləşdirilməsi, ailələrin daha xoşbəxt, firavan, sağlam mühitdə yaşaması, onları narahat edən aktual problemlərin həll yollarının tapılması hər zaman dövlətin diqqətindədir və bu sahədə ciddi işlər görülür. Ümid edirik ki, kənar təsirlər, mövcud problemlər Azərbaycan ailə modelinə zərər vurmayacaq".

### HƏR 1000 NƏFƏRƏ DÜŞƏN NİKAHLARIN SAYI

2023-cü il **5,3**

2024-cü il **4,9**



### XƏYANƏT, ALDADILMA, UĞURSUZ SEÇİM...

Psixoloq Günel Qurbanova düşünür ki, hazırda gənclərdə evlilik fobiyası müşahidə edilir: "Bu fobiyanın yaranmasında mental dəyərlərin çox qabarıq olması, həmçinin insanın özünü güvəndə hiss etməməsi, evlilik məsuliyyətinin ağır gəlməsi, bağlılıq problemi, daha öncədən travmatik bir münasibət yaşamaq, valideynləri arasında olan münasibətdən travma almaq, çevrəsindəki insanlar arasında normal münasibətin olmaması və sair kimi çox səbəblər var. Bu fobiyası olan insanlar ya öz ana-atalarının münasibətlərinə baxıb evlənmək istəmirlər, ya da real həyatda ətrafında baş verən hadisələrdən qorxublar. Xəyanət, aldadılma, uğursuz seçim, yaxud "evlənsəm bədbəxt olaram" qorxusu onları bu qərardan uzaqlaşdırır".



### TEXNOLOGİYA VƏ URBANİZASİYA

Ümumiyyətlə, evliliklərin sayının azalması təkcə Azərbaycanda deyil, bütün dünyada aktual olan məsələlərdəndir. Mütəxəssislər ailə institutunu sarsıdan ikinci böyük məsələnin texnologiya olduğunu düşünürlər. Məsələn, vəkil Özləm Altun hesab edir ki, texnologiya və urbanizasiya, xüsusən son beş ildə evliliklərin azalmasına böyük təsir göstərir: "Texnologiyanın təsiri ilə cütlüklər arasında anlaşılmazlıq yaranır. Pandemiya dövründə bununla tez-tez rastlaşırdıq. Yəni bir evdə olurlar, amma bir-biri ilə danışmırlar. İkincisi, texnologiyanın təsiri ilə dəbdəbə və rahatlıq içində yaşamaq sanki bir zərurət kimi göstərilir. Bu gözlənti artdıqda və yerinə yetirilmədikdə, ayrılıqla nəticələnir".

## NİKAHA MARAĞIN AZALMASININ GÜNAHKARI QADINDIR?

Evliliklərin azalması məsələsini araşdırdıqda sosial şəbəkələrdə tez-tez rastlaşdığımız məqamlar qadınların iqtisadi azadlığı ilə bağlıdır. Yəni, səbəblərdən biri kimi göstərilir ki, qadınlar iqtisadi azadlıq əldə etdikdən sonra evlənməyə maraqları azalıb. Həqiqətən günahkar qadındır?

Bu sualı "Evimin xanımı, övladımı anası, işimin də sahibiyəm" deyən, araşdırmaları, ailəsi, karyerası ilə Azərbaycan qadınını dünyada təmsil edən Nərgiz Hacıyevaya ünvanladıq.

Həmsöhbətimiz deyir ki, bu fikrilər sosial stereotiplərlə bağlıdır: "İqtisadi azadlıq qadınların özünə inamını artırır, onların şəxsi qərar qəbul etmə bacarıqlarını inkişaf etdirir və daha balanslı, sağlam münasibətlərin qurulmasına zəmin yaradır. Əksinə, dəstək və hörmət prinsiplərinə əsaslanmayan münasibətlər, qadının iqtisadi azadlığına rəqabət kimi baxıldıqda, uzunmüddətli ailə harmoniyasına təhlükə törədə bilər. Tədqiqatlar göstərir ki, ailə həyatı iki tərəfin bir-birini tamamlaması və bir-birinə dəstək verməsi üzərində qurulduqda daha möhkəm olur. Belə olan halda, iqtisadi müstəqil qadın öz ailəsinin rifahına töhfə vermək imkanına malik olur və ailənin ümumi rifahı üçün vacib rol oynayır. Cəmiyyətin bəzi üzvləri iqtisadi müstəqilliyi qadınların ailədəki ənənəvi rolunu dəyişdirən təhlükə kimi görür. Halbuki iqtisadi azadlıq fərdin müstəqil qərar vermək qabiliyyətini artırır və həyatın müxtəlif sahələrində daha möhkəm mövqeyə malik olmasını təmin edir".



Nərgiz Hacıyeva

Həmsöhbətimiz vurğulayır ki, təxmini hesablamalara görə, ailələrin 80 faizində qadının iqtisadi müstəqilliyi və karyera yüksəlişi ilə bağlı qısqanclıq və qarşıdurmalar mövcuddur: "Məsələn, qadının əl bacarıqlarını - yemək bişirməyi və ev işlərini fəxrlə dilə gətirən insanlar, eyni qadının maliyyə müstəqilliyi qazandıqda, yüksək maaşlı vəzifəyə çatdıqda bu uğurunu eyni şəkildə qəbul etmirlər. Burada problem iqtisadi azadlıq deyil, gender rolları ilə bağlı cəmiyyətdə formalaşan yanlış qavrayışdır. Ailə münasibətləri qarşılıqlı hörmət və dəstək üzərində qurulduqda iqtisadi azadlıq münasibətləri daha da gücləndirir. Cəmiyyət qadınların iqtisadi azadlığını təhlükə kimi görmək əvəzinə, onu ailə rifahını artıran mühüm bir vasitə kimi qəbul etməlidir".

# KEYFİYYƏTƏ YOX, KƏMİYYƏTƏ FOKUSLANMA



**Azərbaycanda startap bazarı inkişaf etməyə başlayıb. Geridə qalan 2024-cü ildə 65 startap öz statusunu minimal işlək məhsul səviyyəsinə çatdırıb. Ötən ay tamamlanan akselerasiya proqramlarından birində yerli startaplar 700 min avro investisiya əldə edib. Bəzi yerli startaplar artıq xarici bazarlara da çıxıblar.**



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

“Ötən il Azərbaycanda 65 startap öz statusunu minimal işlək məhsul səviyyəsinə çatdırıb”. Bunu Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin İnvestisiyalar və ekosistemə dəstək şöbəsinin müdiri Ağahüseyn Əhmədov deyib. Qurum rəsmisi qeyd edib ki, ötən il bazar əlçatanlığının artırılması üçün doqquz “Demo day” keçirilib. Bu tədbirlərdə 100-dən çox startap iştirak edib və onları 300-dən çox şəxs təmsil edib.

Müxtəlif səviyyələrdə startaplara dəstək imkanları olsa da, bu sahədə ciddi irəliləyiş müşahidə edilmir. Bunun səbəbi nədir? Azərbaycanda startaplarla bağlı problemlər və perspektivlər nədir?

### YERLİ STARTAPLAR 700 MİN AVRO VƏSAİT ƏLDƏ EDİB

İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyindən (İRİA) “Kaspi” qəzetinə verilən məlumata görə, bu istiqamətdə ciddi işlər aparılır: “Bu dəstək akselerasiya və inkubasiya proqramlarına cəlb olunma, mentorluq xidmətlərindən faydalanma, investisiya alətlərinə çıxış, xarici bazarlarda əməkdaşlıq kimi sahələri əhatə edir. Bu səylərin nəticəsi artıq özünü göstərməyə başlayıb. Məsələn, ötən ay tamamlanan akselerasiya proqramlarından birində yerli startaplar 700 min avro investisiya əldə edib, bunun 350 mini nağd vəsait, 350 mini isə mentorluq dəstəyi şəklində təmin olunub. Bəzi yerli startaplar artıq xarici bazarlara çıxaraq uğurla fəaliyyət göstərirlər. Məsələn, “Corpowid” startapı Türkiyə bazarında, “Recepta” Səudiyyə Ərəbistanı və ABŞ bazarlarında, “Epoint” Gürcüstanda, “Coffein” isə Kanadada fəaliyyətini davam etdirir. Bu startapların hamısı ekosistemdə son illərdə yaradılmış layihələrdir və həyata keçirilən işlərin uğurlu nəticəsini təsdiqləyir”.

## Keyfiyyətin aşağı olmasının müxtəlif səbəbləri var

“İstiqbal-1” dron layihəsinin həmmüəllifi, innovasiya üzrə Gənclər üçün Prezident mükafatçısı Suat Muradov deyir ki, minimal işlək məhsul səviyyəsi (MVP) məhsulun ilkin minimal işlək versiyasıdır. Onların keyfiyyətli olmamasının müxtəlif səbəbləri var: “Birincisi, bizdəki inkubatorlar, akselerasiya mərkəzləri hələ təzə-təzə təşəbbüslər irəli sürməyə başlayıblar. Bir şeylər yeni olanda, bir növ xaricdən klonlama prosesi ilə gedir. Yəni, adətən daha çox Dubaydakı, Rusiyadakı modellər Azərbaycana klonlanır. Burada problem odur ki, Azərbaycan konteksti həmişə nəzərə alınmır. Belə rəqabət mühitlərində haradakı resurslar məhduddur, haradakı maliyyə vəsaitləri ayrılır və yeni fürsətlər var, həmin təşəbbüsün fokusu ya özünüreklam, ya da sadəcə vəsaitə çıxış və onun istismarı olur. Proqressiv opportunizm baş verir. Bunun da nəticəsi odur ki, keyfiyyətə yox, kəmiyyətə fokuslanma çox olur”.

### PUL AYRILIR, AMMA KEYFİYYƏTLİ İŞ OLMUR

Bəzi startapların keyfiyyətli olmaması məsələsinə gəldikdə isə, həmsöhbətimiz bildirir ki, “Startup Pitch” düzgün qurulmur: “Startup Pitch” startapın mahiyyətini, ideyasını, planını və potensialını izah edən təqdimatdır. Təqdimat zamanı startapçı investorları inandırmalıdır ki, onların startapına investisiya ayırmağa dəyər. Bir növ satış platformasının demosudur. “Pitch”lər adətən bir neçə dəqiqə çəkir. Orada bazar araşdırması olmalıdır. Burada startapın hansı bazarı hədəflədiyini və müştərilərin hansı problemləri həll edə biləcəyini qeyd etmək lazımdır. Həmçinin hansı rəqiblərin olduğu və startapın onlardan nə ilə fərqləndiyi də izah olunmalıdır. Pul ayrılır, amma ortada keyfiyyətli iş olmur”.

### 65 UĞURLU RƏQƏMDİR

İnvestisiya məsələsində gəldikdə isə, S.Muradov Azərbaycanda yatırım bazarının ümumilikdə kifayət qədər zəif olduğunu düşünür: “Bizdə böyük yatırımçılar çoxdur. Onlar da daha konservativ sahələrə yatırım edirlər. Bu tip sahələrə onların yatırımlarını gözləmək Azərbaycan mühitində real deyil. Bəli, akselerasiya mərkəzlərindən həqiqətən yararlanan, fayda götürən komandalar var, amma bu say kifayət qədər deyil. Çünki mərkəzlərə baş çəkən investorların çox kiçik faizi yatırım edir. Hazırkı reallıqda 65 rəqəmi olduqca uğurlu rəqəmdir”.

## 20-DƏN ÇOX STARTAP ÜÇÜN BİR MİLYON DOLLAR

Qurumdan bildirilir ki, startapların yalnız sayı deyil, keyfiyyəti də böyük əhəmiyyət daşıyır: “Son iki ildə təxminən 400 startap bizim təşkil etdiyimiz və dəstəklədiyimiz müxtəlif müsabiqə, proqram və tədbirlərdə iştirak edib. 2024-cü il üçün isə 65 minimal işlək məhsul səviyyəsinin (MVP) yaradılması ilə yanaşı, bu startapların keyfiyyətinin və inkişafının artırılmasına xüsusi diqqət ayrılacaq. Startapların əldə etdiyi investisiyalar da artmaqda davam edir. Ötən iki il “Caucasus Ventures” tərəfindən 20-dən çox startapa 1 milyon ABŞ dollarından çox məbləğ investisiya verilib. Hazırda 300 min ABŞ dollarından çox məbləğin daha altı startapa ayrılması üzərində işlər gedir. 2024-cü ildə isə akselerasiya proqramları çərçivəsində bir milyon avroya yaxın investisiya yerli startaplara təqdim olunub”.

### YERLİ MENTORLARIN AZLIĞI ƏSAS PROBLEMLƏRDƏN BİRİDİR

İRİA-nın məlumatına görə, regionların inkişafı da diqqət mərkəzindədir. Ötən il oktyabr və noyabr aylarında keçirilən hakatonlarda 50-dən çox layihə iştirak edib: “İnkişaf prosesi təbii olaraq müəyyən çətinliklərlə müşayiət olunur. Məsələn, yerli mentorların azlığı əsas problemlərdən biri olaraq qalır. Lakin bu sahədə də irəliləyiş əldə etmək üçün ciddi addımlar atılır. 2023-cü ildən bu yana 100-dən çox yerli mentorun yetişdirilməsi dəstəklənib və onlar hazırda ekosistemdə fəal şəkildə iştirak edərək öz bilik və təcrübələrini bölüşürlər. Bu sahənin daha da genişlənməsi üçün peşəkar mütəxəssislərin sahibkarlıq istiqaməti ilə bağlı öyrənmələri, sahibkarlığın müasir dövrdə nə qədər perspektivli bir yol olduğunu anlamaları mühüm əhəmiyyət kəsb edir. Bununla yanaşı, media vasitələrinin bu istiqamətdə maarifləndirmə və təbliğat işlərinə cəlb olunması, sahibkarlığın cəmiyyət arasında daha geniş təşviqi üçün vacibdir”.



Suat Muradov

**Foto:** Rüfət Mikayılov/Global Media Group

Kaspi İDMAN
ÜÇ ƏSRİN QƏZETİ
25 YANVAR ŞƏNBƏ 2025
www.kaspi.az



# ELEKTRON İDMANIN İNANILMAZ YÜKSƏLİŞİ



Əvvəllər təkcə ənənəvi idman növlərinə sponsorluq edən bir çox brendlər indi "e-idman"a böyük sərmayə yatırırlar. Elektron idmana investisiyanın potensial gəliri, onun daha gənc və texnologiyadan daha çox məlumatlı auditoriyasını nəzərə alsaq, çox böyükdür.

Son 10 ildə elektron idman ("e-idman") bir vaxtlar hobbi hesab edilən video oyunlarını qlobal səviyyədə tanınan peşəkar idman sahəsinə çevirib. Bunun tarixi ötən əsrin 70-ci illərinə qədər gedib çıxır. Həmin zaman Stanford Universitetində həvəskar oyunçular arasında keçirilən "Spacewar" turniri bu sahədə ilk kövrək addım idi. "E-idman"ın kütləviləşməsi 2000-ci illərdə internetin geniş yayılması ilə mümkün olub. Əyləncə və rəqabət mənzərəsində "e-idman" inkarolunmaz bir güc mərkəzinə çevrilib. Sürətli böyüməsi, geniş arenaları və milyonlarla pərəstişkarı ilə sual yaradır: "e-idman" bir gün populyarlıq və təsir baxımından ənənəvi idman növlərini üstələyə biləcəkmi?

### MİLYARDLARLA DOLLARLIQ MALİYYƏ HOVUZU

Son onillikdə "e-idman" misli görünməmiş inkişafa nail olub. İnternet-kafelərdə başlayan lokal turnirlər indi bütün dünyada canlı yayımlanan və milyonlarla tamaşaçıya çatmaqla hətta NBA və ya İngiltərə Premyer Liqası ilə rəqabət apara bilən sənayeyə çevrilib. Yaxın bir neçə ildə bu əsrarəngiz tamaşaların izləyici kütləsinin milyardı aşacağı ehtimal edilir. Hazırda yarım milyardlıq bir auditoriyadan bəhs edilir. Günümüzdə daha sürətlə inkişaf edən başqa bir sahə yoxdur.

"Dota 2", "League of Legends", "Counter-Strike", "Fortnite" və digər oyunlar milyardlarla dollarlıq maliyyə hovuzuna malikdir. Onların öz dünya çempionatı var və beynəlxalq turnirlər böyük izləyici marağına səbəb olur. Virtual futbol, xüsusilə FIFA və PES ("Pro Evolution Soccer") oyun seriyaları hər il yenilənərək texnologiyanın tərəqqisi sayəsində daha real qrafika təqdim edir. Virtual futbol çempionatları, məsələn, "FIFA eWorld Cup", minlərlə oyunçunun çıxış etdiyi qlobal bir yarışdır.

### "E-İDMAN" NİYƏ POPULYARLAŞIR?

Elektron idman ənənəvi idmanla müqayisədə bir sıra üstünlüklərə malikdir. Bu da sahənin daha sürətli inkişafına şərait yaradır. İlk növbədə bu, internet əsrində olduqca əlçatandır. "E-idman" üçün yüksək fiziki bacarıq tələb olunmur. Bir kompüter və ya oyun konsolu əsrarəngiz bir aləmə giriş üçün kifayətdir. İkinci üstünlük müxtəlifliklədir. Burada janrlar o qədər çoxdur ki, hər kəs özünə uyğun olanı tapmağı bacarır. Oyunçu özünü döyüş arenalarında sınaya bilir, strateji bacarıqları ilə dünyaya meydan oxuyur və ya sadəcə super-qəhrəmana çevrilir. Elektron idman dünyası maraqlıdır: həm əylənirsən, həm də qələbə qazanmağın zövqünü yaşayırsan. Eyni zamanda "e-idman" interaktivdir. Onun rəqəmsal təbiəti həm iştirakçılara, həm də fanatlara qarşılıqlı əlaqə üçün münbit şərait yaradır. Xüsusən, "Twitch" kimi platformalar vasitəsilə fanatlar sevimli oyunçuları ilə birbaşa əlaqə saxlaya bilir ki, bu da ənənəvi idman növlərində təkrarlanması çətin olan məqamdır. Sahənin getdikcə populyarlıq qazanaraq böyüməsi buraya investisiya axınına səbəb olub. Əvvəllər təkcə ənənəvi idman növlərinə sponsorluq edən bir çox brendlər indi "e-idman"a böyük sərmayə yatırırlar. Elektron idmana investisiyanın potensial gəliri, onun daha gənc və texnologiyadan daha çox məlumatlı auditoriyasını nəzərə alsaq, çox böyükdür.

## Elektron idman ənənəvi idmanı əvəz edəcəkmi?

Virtual idmanın sürətli inkişafı bəzi mütəxəssislərdə narahatlıq doğurur. Bu oyunlar, xüsusən gənc nəsillərin real idmana marağını azalda bilər. Daha az fəal həyat tərzi və oyunçuların ekran qarşısında daha çox vaxt keçirməsi fiziki sağlamlığa təsirsiz ötüşmür. Üstəlik, virtual futbolun texnoloji üstünlükləri bəzi gəncləri idman arenalarından ekranlara çəkə bilər, bu da real oyunlara marağı azaldır. Digər tərəfdən, bəzi futbol klubları mövcud təhdidləri fürsətə çevirmək üçün addımlar atır. Artıq bir çox klubun "e-idman" komandaları var və bu vasitə ilə onlar həm gəlirlərini artırır, həm də gənc nəsillərlə əlaqə qurur.

Ümumən gələcək həmişə qeyri-müəyyənliklərlə doludur, lakin mövcud tendensiyalar "e-idman" üçün parlaq gələcək təklif edir. Elektron idman gəlir baxımından bir çox ənənəvi idman növlərini geridə qoyaraq milyard dollarlıq sənayeyə çevrilə bilər. Mövcud trayektoriyanı nəzərə alsaq, "e-idman" turnirləri qlobal tamaşaçı sayına görə bir çox böyük ənənəvi idman turnirlərini geridə qoymaq potensialındadır. Artırılmış Reallıq və Virtual Reallıq inteqrasiyası "e-idman"da inqilab edə, hər hansı bir ənənəvi idman növündə bənzəri olmayan immersiv təcrübələr təqdim edə bilər.



Elektron idman yüksək inkişaf trayektoriyasında olsa da, ənənəvi idman növlərinin zəngin tarixini və fiziki xüsusiyyətlərini nəzərə almaq vacibdir. Uzunmüddətli perspektivdə bu iki sahənin birgə inkişaf etməsi üçün balanslı yanaşma tələb olunur. İlk növbədə qəbul etmək lazımdır ki, elektron idman sadəcə keçici bir tendensiya deyil - bu, rəqabət və əyləncə dünyasını yenidən formalaşdıran qlobal bir fenomendir. Ənənəvi idman növlərini tamamilə əvəz etməsə də, gələcək onilliklərdə onun təsiri danılmaz olacaq.